www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 24 aprel 2017-ci il Bazar ertəsi № 85 (6699) Qiyməti 60 qəpik

**Xəbər**

**Şirvanda dəhşət: hamilə arvadını vəhşicəsinə döydü, uşaq öldü**

yazısı səh.11-də

**Gündəm**

**Sabah ÜAK-ın taleyi həll olunur - Moskva məhkəməsi hansı qərarı çıxaracaq?**




**Ekspert:** "Kreml Rusiyadakı azərbaycanlıların ən böyük diaspor təşkilatının ləğvini istəmirsə..."

yazısı səh.3-də

**Bu gün AŞPA-da erməni-türk qarşıdurması gözlənilir**

yazısı səh.3-də

**2017-ci ildə manata kəskin devalvasiya təhlükəsi varmı? - mütəxəssis proqnozları**

yazısı səh.4-də

**Böyük erməni yalanının 102-ci ildönümü - bu gün ermənilərin ağlaşma günüdür**

yazısı səh.4-də

**Yanan binanın açılmayan sirləri: şahid ifadələrini kim və niyə təhrif edib?**

yazısı səh.10-da

*Parlamentin danışmayan deputatları*

**Danışan həmkarları onlar haqda nə düşünürlər...**

yazısı səh.6-da

**Qarabağ səmasındakı qatı barıt qoxusu - sülh şansları azalır**

yazısı səh.13-də

**Uşaqlar terrorçu-kamikadzelərə necə çevrilir? - Araşdırma**

yazısı səh.15-də

**Əməkdaşımızın hər an bədbəxt hadisələrin yaşana biləcəyi Hövsan yolundan qeydləri**

yazısı səh.11-də

*20 yaşlı qızın qatili:*

**"O qədər sərxoş idim ki...**

yazısı səh.14-də

## Müharibə zərurəti sülh şansına qarşı - qaçılmaz gəlişmə

# İŞĞALÇIYA ORTAQ GÜC NÜMAYİŞİ: TÜRK HƏRBÇİLƏRİ QARABAĞDA

İki qardaş ölkə bu il üçün ilk birgə möhtəşəm təlimlərə başlayır; Türkiyə-Azərbaycan ortaq hərbi manevrləri zamanı isə prezident Ərdoğan Rusiyada səfərdə olacaq - incə ismarış, amma kimə?..



yazısı səh.7-də

## "MTN işi": dələduzlar Çovdarovdan intiqam alır

Vaxtilə qanunsuzluq etmiş sabiq MTN-çilər indi yalançı şahidlərlə üzləşməli olublar...

yazısı səh.10-da



*Fazil Mustafa:*

**"Leş mafiyası" ona görə mövcuddur ki, aldanmağa hazır olan leşlər var"**

yazısı səh.5-də



*Əflatun Amaşov:*

**"Mən tənqidə dözümlüyəm, ancaq...**

yazısı səh. 8 və 9-da



*Elxan Şahinoğlu: :*

**"Azərbaycandan İŞİD-ə qoşulmaq istəyənlər azalıb"**

yazısı səh.6-da

**24 aprel 2017**

YENİ MÜSAVAT
N 85 (6699) 25 aprel 2017



## "Bu - Türkiyənin Azərbaycana gözlədiyimiz dəstəyidir"

**"Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin növbəti hərbi təlimləri Bakı və Ankara arasında nəinki indiki, eyni zamanda, bundan sonrakı çox ciddi əməkdaşlığın göstəricisidir". Bu sözləri axar.az -a açıqlamasında deputat Asim Mollazadə deyib.**

Onun sözlərinə görə, Türkiyənin müasir NATO təcrübəsini əldə edən Azərbaycan Silahlı Qüvvələri bölgənin ən güclü ordusuna çevrilir: "Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin növbəti hərbi təlimləri Bakı və Ankara arasında çox ciddi əməkdaşlığın göstəricisidir. Türkiyə Azərbaycan Silahlı Qüvvələrində həyata keçirilən islahatların hər birinə hər zaman dəstək verib və bundan sonra da verəcək. Azərbaycan Ordusu günü-gündən güclənir. İki ölkənin çox mühüm layihələrdə, xüsusilə də təhlükəsizlik məsələlərində əməkdaşlığı üçüncü bir tərəfə qarşı yönəlməyib və yalnız bir məqsədi var, o da Azərbaycan Silahlı Qüvvələrinin daha müasir və güclü olmasıdır".

Qeyd edək ki, Azərbaycanla Türkiyə arasında hərbi əməkdaşlıq haqqında sazişə əsasən, mayın 1-dən 5-dək hər iki ölkənin Silahlı Qüvvələrinin birgə taktik təlimləri keçiriləcək.



## Ukraynada ATƏT əməkdaşı öldürüldü

**Ukraynanın Donbas bölgəsində avtomobilin minaya düşməsi nəticəsində ATƏT əməkdaşı ölüb. APA-nın TASS agentliyinə istinadən verdiyi məlumata görə, ATƏT faktı təsdiqləyib.**

Məlumatda bildirilir ki, hadisə dünən Slavyanoserbsk rayonunun Prişib kəndində olub. İki avtomobillə Slavyanoserbsk-Sokolnik marşrutu üzrə hərəkət edən ATƏT əməkdaşlarının avtomobillərindən biri minaya düşüb. Nəticədə ATƏT əməkdaşlarından biri ölüb, biri yaralanıb.

## Türkiyədə şagird baş nazir oldu

**Dünən Türkiyədə Milli Suverenlik və Uşaq bayramı qeyd olunub. Aznews.az xəbər verir ki, baş nazir Binəli Yıldırım postunu bir günlük 5-ci sinif şagirdi Yağız Keçeyə etibar edib. Kiçik baş nazir onunla yaşıd olan nazirlərin suallarını cavablandırıb. Kiçik nazirlər baş nazirə daha çox təhsillə bağlı suallar ünvanlayıblar.**

"Konstitusiya dəyişikliyi ilə bağlı 8 il sonra nazir olmaq mümkündürmü" sualına kiçik baş nazir bununla bağlı çox sevincli olduğunu bildirib. Baş nazir Binəli Yıldırım uşaqların bu söhbətini bəyənərək, Türkiyənin gələcəyinin parlaq olacağını ifadə edib.

"Qaya Mətbuat Yayımı" MMC!
**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**
- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**
- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.
**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**
- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Azərbaycanın 40 milyard dollarlıq layihəsinə qarşı barrikadalar quruldu

**İtaliyada iki gün əvvəl məhkəmə Transadriatik Qaz Kəmərinin keçdiyi Apuliya bölgəsində 244 çoxillik zeytun ağacının köçürülməsinə icazə versə də "No TAP" komitəsinin fəalları yenidən tikinti işlərinin başlamasına mane olub.**




Virtualaz.org İtaliya KİV-lərinə istinadən xəbər verir ki, məhkəmə aprelin 20-də Melandunyo bələdiyyəsinin ağacların köçürülməsinin dayandırılmasına dair iddiasına baxıb və təmin etməyib. Məhkəmənin qərarına əsasən TAP konserni İtaliya mərkəzi hökumətinin qərarı əsasında tikinti işlərini davam etdirə və zeytun ağaclarını köçürə bilər. Lakin məhkəmənin qərarı elan olunan kimi "No TAP" komitəsinin fəalları yenidən tikinti sahəsini blokadaya alıblar.

Ötən gün komitənin 300-dən çox fəalı tikinti zonasını blokadaya alıb və bütün gecəni orada keçirib. Etirazçılar tikinti zonasına aparan bütün yollarda barrikadalar qurublar, yük maşınları ilə daş-kəsək daşıyıb yollara töküblər. Regionun qubernatoru Mişel Emiliano jurnalistlərə bildirib ki, məhkəmənin qərarına baxmayaraq onlar TAP kəmərinin marşrutunun dəyişdirilməsi üçün bütün imkanlardan istifadə edəcəklər, o cümlədən Konstitusiya Məhkəməsinə müraciət edəcəklər. Qubernator kəmərin zeytun bağları ilə yanaşı Avropanın ən gözəl çimərliklərindən birinə də zərər vuracağını deyib.

"No TAP" komitəsinin fəalları tikinti işlərini daha bir neçə gün ləngidə bilsələr o zaman işlər ən azından noyabr ayına qədər dayanacaq. Çünki may ayında ağacların köçürülməsinə icazə verilmir və görünən odur ki, Azərbaycanın "Şahdəniz" qazının Avropaya çatdırılmasına dair cəmi 40 milyard dollara başa gələcək Cənub Qaz Dəhlizi layihəsi İtaliyanın cənubunda əməlli-başlı dalana dirənib.

Xatırladaq ki, "No TAP" komitəsi İtaliya parlamentində 22 faiz yerlə təmsil olunan "5 Star" müxalif hərəkatı tərəfindən təşkil olunub. Bu hərəkat və onun lideri-şoumen Beppe Grillo Rusiyaya bağlıdır. Bu günlərdə ABŞ administrasiyası İtaliya hökumətini xəbərdar edib ki, Rusiya Beppe Grillo ilə işləyir və növbəti seçkilərdə "5 Star" hərəkatını, habelə digər rusiyameylli siyasi qüvvəni-"Şimal liqasını" hakimiyyətə gətirmək istəyir.

## Bu gün yağmurlu hava olacaq

**Bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən verilən məlumata görə, gecəyə doğru yarımadanın bəzi yerlərində qısamüddətli yağış yağacağı ehtimalı var.**

Güclü şimal-qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 8-11° isti, gündüz 14-17° isti, Bakıda gecə 8-10° isti, gündüz 14-16° isti olacağı gözlənilir. Atmosfer təzyiqi 754 mm civə sütunundan 765 mm civə sütununa yüksələcək. Nisbi rütubət gecə 75-85 %, gündüz 60-70 % təşkil edəcək.

Azərbaycanın rayonlarına gəlincə, aprelin 24-də bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 7-12° isti, gündüz 18-23° isti, dağlarda gecə 4-9° isti, gündüz 10-15° isti olacağı gözlənilir.



## "Koroleva", nələr baş verir?"

**Mərhum xalq artisti İlhamə Quliyevanın kürkünün oğulluğu Orxan Nadirov tərəfindən lombardlardan birinə qoyulması xəbəri geniş müzakirələrə səbəb olub. Bir çox sənətçilər sosial şəbəkələrdə məsələyə öz münasibətini bildirib. Musavat.com bildirir ki, tanınmış aparıcı Lamiyyə Ələkbərqızı olaya bu cür mövqe bildirib:**

"Neçə gündür çox düşünürəm ki, necə yazım, nə deyim. Çox məyus olmuşam. "Koroleva", nələr baş verir? Bu günləri yaxşı ki, görmədin. Yoxsa, dözə bilməzdin!

Bacaran, bacarmayan mahnılarını oxuyur. Heç bir zaman buna icazə verməzdin. Arxanca danışanlar danışır. Halbuki sənin qorxundan heç bir zaman danışa bilməzdilər. Sevdiyin əşyaların başqa-başqa məkanlardadır. Heç bilmirik haralardadır. Bu sənmisən, xalqın sevimlisi, nələr baş verir? Gözünü aç, bax gör nələr var... Ruhun şad olsun, məkanın cənnət. Allah hər kəsə insaf versin. Ürəyim doludur, amma yaza bilmirəm. Çünki əllərim əsir, dodağım titrəyir, heç kimin xətrinə dəymək istəmirəm. Amma diqqətli olun, sənətkarın sənətinə toxunmayın. Bacaran, bacarmayan, mahnılara dəyməyin. Sənətkarın ruhunu incitməyin. Həyatda hər şey bumerangdır. Bir gün siz də hiss edəcəksiniz. Allah sənə rəhmət eləsin, "Koroleva".

❑ XALİDƏ

## Azərbaycanın güc strukturları alman xüsusi xidmət orqanlarını qabaqladı

**Azərbaycan ölkəyə baş çəkən turistlərin təhlükəsizliyi reytinqində Almaniyanı keçib. Virtualaz.org bildirir ki, bu barədə alman nəşri "Direkt" yazıb.**

Reytinq Ümumdünya İqtisadi Forumu tərəfindən tərtib edilir və orada polisin etibarlılığı, cinayətlərin sayı və terror aktları ehtimalı nəzərə alınır. İnformasiyaya əsasən, 2015-ci ilin reytinqində Almaniya 20-ci yerdə olub, bu il isə 31 pillə geriləyərək 51-ci yerdə qərarlaşıb. Azərbaycandan başqa Ruminiya, Mərakeş və Bəhreyn də reytinqdə Almaniyanı keçiblər.

Turistlərin təhlükəsizliyi sahəsində Finlandiya liderlik edir. İkinci yerdə Birləşmiş Ərəb Əmirlikləri, üçüncüdə İslandiyadır. İlk onluqda, həmçinin Oman, Honkonq, Sinqapur, Norveç, İsveçrə və Qətər yer alıblar.

Nəşr qeyd edir ki, yalnız Almaniya deyil, başqa aparıcı Avropa ölkələri də turistlər üçün təhlükəsizlik reytinqində liderlik mövqelərini itiriblər: Fransa 67-ci, İtaliya - 70-ci , Böyük Britaniya isə 78-ci yerdə qərarlaşıblar. Nigeriya, Pakistan, Salvador, Yəmən və Kolumbiya turistlər üçün ən pis ölkələr hesab olunub.

## Stavropolda iki İŞİD-çi məhv edildi

**Rusiyanın Stavropol diyarında polis əməkdaşlarına müqavimət göstərmiş iki silahlı məhv edilib. APA-nın verdiyi xəbərə görə, bu barədə Rusiya Antiterror Mərkəzindən bildirilib. Məlumata görə, avtomobildə olan şəxslər avtomat silahdan atəş açdıqdan sonra hadisə yerini tərk etməyə çalışıblar, amma cavab atəşi ilə məhv ediliblər.**

"Öldürülən şəxslərin kimliyi müəyyənləşdirilib. Onlardan biri İŞİD-in düşərgələrində hazırlıq keçib və Rusiyaya terror aktları törətmək məqsədi ilə gəlib. İkinci şəxs qruplaşmanın fəal üzvü olub", - deyə məlumatda bildirilib.

Qeyd olunan şəxslər Rusiya ərazisində silsilə terror aktları törətməyi planlaşdırıblar: "Onlar din xadimlərini və mülki şəxsləri qətlə yetirməyi planlaşdırıblar".

Xatırladaq ki, bundan əvvəl Vladimir şəhəri yaxınlığında terror aktları törətməyi planlaşdıran Orta Asiya ölkələrindən birinin vətəndaşları məhv edilmişdi.

YENİ MÜSAVAT
N 85 (6699) 24 aprel 2017

# Sabah ÜAK-ın taleyi həll olunur - Moskva məhkəməsi hansı qərarı verəcək?

## Ekspert: "Kreml Rusiyadakı azərbaycanlıların ən böyük diaspor təşkilatının ləğvini istəmirsə..."

**Sabah Rusiya Ali Məhkəməsində Rusiya Ədliyyə Nazirliyinin Ümumrusiya Azərbaycan Konqresinin (ÜAK) qeydiyyatının ləğvinə dair iddiası ilə bağlı məhkəmə iclası keçiriləcək.**




Qeyd edək ki, məhkəmə iclası aprelin 11-dən keçirilməli idi. Rusiya Ədliyyə Nazirliyinin nümayəndəsinin iştirak etməməyi əsas göstərilərək hazırlıq iclası aprelin 25-nə təyin olunmuşdu. Ədliyyə Nazirliyi ÜAK-ın fəaliyyətində Rusiya Federasiyasının qanunvericiliyinin pozulduğunu, eləcə də qurumun öz nizamnaməsinin müddəalarının pozulduğunu əsas göstərək Ali Məhkəməyə müraciət edib.

Rusiya Ədliyyə Nazirliyi bəyan edib ki, "İctimai Təşkilatlar haqqında" qanunu əsas götürərək ÜAK-ın Mərkəzi Şurasının Rəyasət Heyətinə aşkar olunan pozuntuların aradan qaldırılması ilə bağlı dəfələrlə xəbərdarlıq edib, lakin xəbərdarlıqlar nəticə verməyib-ÜAK-ın sənədləri qaydasına salınmayıb: "Təşkilat pozuntuları aradan qaldırmadığına görə Rusiya Ədliyyə Nazirliyi təşkilatın ləğvinə dair inzibati iddia qaldırılması üçün bu il martın 9-da Ali Məhkəməyə müraciət edib".

Rusiyada azərbaycanlıların böyük diaspor təşkilatı olan ÜAK-ın qeydiyyatının ləğv olunmaması üçün Azərbaycanın müvafiq dövlət və hökumət qurumları, ayrı-ayrı nüfuzlu ictimai, siyasi xadimlər iş aparıblar. Eyni zamanda Azərbaycan Milli Məclisində məsələ ciddi müzakirə edilib, deputatlar Azərbaycan tərəfinin narahatlığını ifadə ediblər və bəyan edilib ki, ÜAK-ın qeydiyyatının ləğvi Azərbaycanla Rusiya arasında münasibətlərə soyuqluq gətirə bilər. Bəzi ekspertlər hesab edir ki, həm aparılan iş, danışıqlar, həm də verilən bəyanatların aprelin 11-də məhkəmə iclasının təxirə salınmasında hər halda rol oynamamış deyil. Ola bilsin ki, rəsmi Moskva da ÜAK-ın qeydiyyatının iki ölkə arasında münasibətlərə mənfi təsir edəcəyinin fərqindədir. Ona görə də problemin yoluna qoyulması üçün vaxt uzadılır.

Politoloq Elçin Mirzəbəyli bu barədə "Yeni Müsavat"a deyib ki, ola bilsin, Ədliyyə Nazirliyində məsələ ilə bağlı vacib müzakirələr davam etməkdədir: "Nazirliyin konkret müraciəti sayəsində məhkəmənin sadəcə, iki qərar qəbul etmək hüququ var. Ya ÜAK-ın qeydiyyatı ləğv olunacaq, ya da müraciət rədd ediləcək. Məhkəmənin alternativ qərar qəbul etməsi mümkün deyil. Diaspora təşkilatları ilə bağlı qərarları ancaq Ədliyyə Nazirliyi verə bilər. Ancaq maraqlı burasıdır ki, nazirlik indiyə qədər Konqresin fəaliyyəti ilə bağlı hansısa qərar qəbul etməyib. Əgər ciddi qanun pozuntusu var idisə, o zaman nazirlik ÜAK-a xəbərdarlıq etməli və səhvi düzəltmək üçün vaxt verməli idi. Məncə, bu prosedur həyata keçirilməyib və nazirlik özü qanun pozuntusuna yol verib. Moskva ÜAK-ın qeydiyyatının ləğvini istəmirsə, bu amil hüquqi əsas kimi göstərilə və Ədliyyə Nazirliyinin iddiası geri qaytarıla və Nazirliyin qərar verməsi tövsiyə edilə bilər. Bundan sonra isə ÜAK sənədlərdə əgər problem varsa həmin problemləri düzəldib qeydiyyat üçün nazirliyə yenidən müraciət edə bilər. Nazirlik isə məsələnin müsbət həllinə qərar verər".

ÜAK 2001-ci ildə mərhum dövlət başçısı Heydər Əliyevin təşəbbüsü ilə təsis olunub və təsis konfransında Rusiya prezidenti Vladimir Putin da iştirak edib. Bundan başqa, Azərbaycan və Rusiya prezidentləri ÜAK-ın qurultaylarına təbrik məktubları göndəriblər, qurumun fəaliyyətini yüksək qiymətləndiriblər. Ötən ilin dekabrında Moskvada ÜAK-ın IV Qurultayında təşkilatın rəhbər orqanlarına yeni seçkilər keçirilib. Səsvermə nəticəsində tanınmış ictimai xadim, tibb elmləri namizədi, professor Fazil Qurbanov qurumun yeni prezidenti seçilib.

❑ Etibar SEYİDAĞA

# Bu gün AŞPA-da erməni-türk qarşıdurması gözlənilir

## Türkiyədə demokratiya məsələsinin gündəliyə salınmasının arxasındakı "erməni izi"

**Bu gün - Aprelin 24-də Avropa Şurası Parlament Assambleyasının yaz sessiyası başlayacaq. Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr Komitəsinin sədri, Avropa Şurası Parlament Assambleyasındakı daimi nümayəndə heyətinin rəhbəri Səməd Seyidov və bir qrup deputat AŞPA-nın yaz sessiyasında iştirak etmək üçün aprelin 23-də Strasburqa gediblər.**

Yaz sessiyası aprelin 30-dək davam edəcək.

Milli Məclisin Mətbuat xidmətindən verilən məlumata görə, nümayəndə heyətinə parlamentin Mədəniyyət komitəsinin sədri Rafael Hüseynov, deputatlardan Sevinc Fətəliyeva, Sahibə Qafarova, Vüsal Hüseynov və Müslüm Məmmədov daxildirlər. Sessiya dövründə AŞPA-nın son 6 ay ərzində fəaliyyəti barədə və Türkiyədə demokratik institutların fəaliyyəti barədə məruzələr dinləniləcək, müzakirələr aparılacaq. Türkiyə ilə bağlı məruzənin müzakirəsi zamanı Azərbaycan nümayəndə heyətinin bütün üzvlərinin çıxışları nəzərdə tutulub.

Bundan başqa, sessiya çərçivəsində Avropa Şurasının İnsan hüquqları üzrə komissarı Nils Muijneksin 2016-cı il üzrə hesabatı olacaq, suallara cavab veriləcək.

Azərbaycan nümayəndə heyətinin üzvləri AŞPA komitələrinin və siyasi qruplarının işində də iştirak edəcəklər. Səfər çərçivəsində nümayəndə heyətinin üzvü Sahibə Qafarova AŞPA Bürosunun da tədbirlərinə və təşkilatın gələcək fəaliyyəti ilə bağlı müzakirələrə qatılacaq.



Yayılan xəbərlərə görə, Türkiyədə demokratik institutların fəaliyyəti barədə məruzələrin dinlənilməsinin yaz sessiyasının gündəliyə salınması təsadüfi deyil. Bu məsələdə ermənilərin və AŞPA rəhbərliyindəki ermənipərəst şəxslərin marağı var. Yaz sessiyasının başlanma tarixi 24 aprelə - qondarma "erməni soyqırımı"nın ildönümünə təsadüf etdiyindən ermənilər və ermənipərəstlər AŞPA sessiyasında Türkiyənin üzərinə getmək, bu ölkəni hədəfə almaq üçün gündəliyə Türkiyədə demokratik institutların fəaliyyəti barədə məruzələrin dinlənilməsini və müzakirəsini daxil etməyə nail olublar. Böyük ehtimalla, məruzələr çox sərt tənqidi ruhda olacaq və AŞPA-dakı erməni deputatlar və onların dəstəkçiləri Türkiyəyə qarşı hücuma keçib AŞPA-dan bu ölkəyə qarşı sərt qətnamə və qərarların qəbul olunmasını tələb edəcəklər.

Şübhəsiz ki, "erməni soyqırımı" məsələsini də türk düşmənləri unutmayacaq. İstisna deyil ki, "erməni soyqırımı qurbanları"nın xatirəsinin AŞPA-da sükutla yad edilməsinə nail olmaq istəsinlər. Görünür, qeyd olunanlar barədə Azərbaycan nümayəndə heyəti də məlumatlıdır. Bu səbəbdən də Türkiyə ilə bağlı məruzənin müzakirəsi zamanı Azərbaycan nümayəndə heyətinin bütün üzvlərinin çıxışları nəzərdə tutulub. Şübhəsiz ki, Azərbaycan deputatları qardaş ölkənin müdafiəsi yönündə çıxışlar edəcəklər.

❑ Etibar SEYİDAĞA



# Fransada kritik prezident seçkisi

## Azərbaycan üçün məqbul namizəd varmı?

**Aprelin 23-də Fransada prezident seçkilərinin birinci turu keçirilib. Vətəndaşlar mayın 7-də baş tutacaq ikinci tur üçün 2 namizədin adını müəyyən etməlidir (Qəzet çapa gedənə qədər nəticələr bəlli deyildi - red). Seçkilərdə 11 prezidentliyə namizəd mübarizə aparır. Namizədlərdən hər hansı birinin 50 faizdən çox səs alması proqnozlaşdırılmır.**

Sorğuların nəticələrinə əsasən ilk beş sırada qərarlaşan namizədlərdən 4-nün ikinci tura keçmək şansı var. İlk beşliyə radikal Milli Cəbhənin lideri Marine Le Pen, özünü mərkəzçi sayan "En Marche" (Yürüş) Hərakatının lideri Emmanuel Makron, mərkəz sağçı respublikaçıların namizədi Fransua Fiyon, radikal solun namizədi Jan-Lyuk Melanşon və hakimiyyətdəki Sosialist Partiyasının namizədi Benua Amon daxildir.

Hüquqşünas olan 48 yaşlı ultramillətçi M. L. Penin seçkilərdə birinci turu keçəcək iki namizəddən biri olacağına heç kəs şübhə etmir. İslam və qaçqınlara qarşı baxışları ilə fərqlənən M. L. Penin vədləri sırasında yeni qanunlar qəbul edilənə qədər Fransaya bütün qanunsuz miqrasiyanın dayandırılması var. Lakin ikinci turda onun qələbə şansı yüksək qiymətləndirilmir. Onun ikinci turda E. Makronla mübarizə aparacağı proqnozlaşdırılır.

E. Makron seçiləcəyi halda Fransanın ən gənc prezidenti olacaq. Fransa prezidenti Fransua Ollandın maliyyə məsləhətçisi olmuş E. Makronun seçki vədləri sırasında peşə təlimi, kömürdən yenilənən enerjiyə keçid, infrastrukturun müasirləşdirilməsi layihələrinə 50 milyard dollar xərclənməsi, şirkətlərə vergi güzəştləri, 35 saatlıq həftəlik iş saatının artırılması üçün şirkətlərlə müzakirələr aparılması, işsizlik səviyyəsinin 9,7 faizdən 7 faizə endirilməsi var.

Sabiq baş nazir Fransua Fiyonun vədləri sırasında isə 0,5 milyon insanı dövlət sektorunda işdən çıxarmaq, həftəlik iş saatının müddətinin 35 saat saxlanılması, mülkiyyət vergisinin ləğv edilməsi, İraq və Suriyada döyüşlərdə iştirak edən cihadçıların Fransa vətəndaşlığından çıxarılması, Avropa İttifaqının Rusiyaya qarşı sanksiyalarının ləğvinə səy göstərilməsi, Başər Əsədə İŞİD terror təşkilatını məğlub etmək üçün yardım edilməsi var. Namizədlərdən Marin Le Pen və Fransua Fiyon ermənilərin xeyirinə açıqlamaları ilə də fərqləniblər. Bu namizədlərin açıq-aşkar Azərbaycan əleyhinə olan mövqeyi onların Fransa prezidenti seçilməsinin Azərbaycanın maraqlarına zidd olduğunu ortaya qoyur. Ekspertlərə görə, Azərbaycan üçün nisbətən məqbul variant Makronun prezident seçilməsidir.

Siyasi ekspert Yeganə Hacıyeva bildirdi ki, bu seçkilərə adi Fransa prezidenti seçkiləri kimi baxmaq və ya analiz etmək doğru deyil: "Bu seçki Avropa Birliyi üçün də tarixi və dramatik prezident seçkiləridir. İlkin sorğular göstərir ki seçkidə iştirak edən 5 parlaq namizəddən Marin Le Pen və Emanuel Makronun ikinci tura keçmək şansı yüksəkdir. Bu seçkini AB üçün tarixi edən, hətta deyərdim dramatikləşdirən də məhz bu məqamdır. Belə ki, bu namizədlərdən Makron qatı Avropa Birliyi tərəfdarı, Le Pen isə AB və NATO üzvlüyünün əleyhdarlarıdır. İkinci turda kimin seçilmə şansını əlbəttə ilk turun nəticəsi və qlobal güclərin reaksiyası göstərəcək və mən qlobal siyasətdə Trampla başlanan adioz, avtoritar və ya millətçi radikal namizədlərin populyarlığı dalğasının Avropada davam edəcəyi qənaətindəyəm. Trampın Le Penin seçiləcəyi proqnozu doğrula bilər".

Ekspert vurğuladı ki, Fransa Azərbaycan münasibətləri hər hansı bir siyasi və ya ictimai fiqurun fəaliyyəti ilə kölgə salınmayacaq qədər dərin və möhkəmdir: "Fransa Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdəndir. Fransa və Azərbaycan münasibətlər qarşılıqlı strateji tərəfdaşlıq xarakteri daşıyır , siyasi, iqtisadi, mədəni , təhsil , kosmik texnologiyalar sahələrin inkişaf etmiş , regional təhlükəsizlik sahəsi və beynəlxalq terrorizmə qarşı mübarizədə birgə , tərəfdaş fəaliyyət mövcuddur. Fransa Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir, Minsk Qrupunda Qarabağ konfliktinin həllində həmsədr statusunda çıxış edir. Yəni prezident seçkilərində hansı namizədin qalib gəlməsindən asılı olmayaraq, yeni prezidentin mövcud Azərbaycan-Fransa münasibətlərinə xələl gətirməsi çətin məsələdir. Amma əlbəttə namizədlər arasında Fransa Azərbaycan münasibətləri üçün daha uğurlu bir namizəd var, bu da Emanuel Makrondur. Makron ölkəmizdə siyasi və iqtisadi dairələrlə tanış bir simadır, millətçi əhval-ruhiyyədə deyil".

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 85 (6699) 24 aprel 2017

# Bu il manata kəskin devalvasiya təhlükəsi varmı? - mütəxəssis proqnozları

**Natiq Cəfərli:** "İlin sonuna kimi dollar 1.90-1.95 manat həddində olacaq"
**Vahid Əhmədov:** "Sentyabrdan etibarən manat öz dəyərini almalıdır, 1.9 manata qədər bahalaşa bilər"
**Əkrəm Həsənov:** "Mərkəzi Bank manat qıtlığını aradan qaldırsa, ilin sonuna dolların məzənnəsi 2 manatı ötəcək"

**Manat sabitliyini qorumaqda davam edir. Mərkəzi Bankın 24 aprel tarixinə müəyyənləşdirdiyi rəsmi məzənnəyə görə, 1 ABŞ dolları 1,7022 manata bərabər olacaq. Əhalini, xüsusən də iş adamlarını düşündürən əsas sual isə manatın hansı müddətə qədər sabitliyini qoruyub saxlayacağı ilə bağlıdır.**

Biznes qurumlarında belə bir rəy var ki, ölkəmizdə keçiriləcək beynəlxalq yarışlar bitəndən sonra dollar 2 manatadək bahalaşacaq. Bəs, görəsən iqtisadçılar necə hesab edir? Onların bunu il ərzində manatın necə davranacağı ilə bağlı proqnozları necədir?

Milli Məclisin İqtisadi siyasət, Sənaye və Sahibkarlıq Komitəsinin üzvü Vahid Əhmədov bu barədə "Yeni Müsavat"a danışdı. O bildirdi ki, manat sentyabr ayından etibarən kəskin dəyər itirə bilər: "Pul siyasətini Mərkəzi Bank, Maliyyə Nazirliyi, Maliyyə Bazarlarına Nəzarət Palatası həyata keçirir. Onlar belə qərara gəliblər ki, manatı müəyyən qədər qoruyub saxlasınlar. Əlbəttə, indiki zamanda bu vacibdir. Çünki Azərbaycanda İslam Oyunları, Formula 1 yarışları keçiriləcək, gələn turistlərin sayı həddindən artıq çox olacaq. Dolların ucuz olması bizə sərf edir ki, turistlərdən dollar ucuz qiymətə alınsın. Amma ümumi götürəndə real sektorun inkişafı üçün, iqtisadiyyatın inkişafı üçün manat gec-tez öz bazar qiymətini almalıdır. Mən hesab edirəm ki, bu proses haradasa avqust-sentyabr aylarına qədər davam edəcək, ancaq sonra bu prosesi saxlamaq çox çətin olacaq. Sonra qərar veriləcək ki, manat yenidən ucuzlaşmağa başlasın və dollar bahalaşsın. Hazırda ölkədə manat qıtlığı yaradılıb. İnvestisiya layihələrinə vəsait qoyulmur, nağd pul çıxartmaqla əlaqədar problem yaradır. Yay aylarında da bu problem çox hiss olunmayacaq. Ancaq hökumət iqtisadiyyatın inkişafını istəyirsə, sentyabrdan etibarən manatın öz dəyərini almalıdır. Ola bilər ki, bu ilin yanvar ayında necə dollar necə 1.9 manata qalxmışdısa, yenə həmin məzənnəyə qalxar".



İqtisadçı ekspert, hüquqşünas Əkrəm Həsənov da "Yeni Müsavat"a açıqlamasında ilin sonunadək manat devalvasiyaya məruz qalacağını bildirdi: "Hər bir halda indiki məzənnəsindən ucuz olacaq. Lakin nə qədər ucuzlaşacağını birmənalı demək mümkün deyil. Burada iki variant mümkündür. Məlum olduğu kimi, manatın məzənnəsi tələb və təklif əsasında formalaşır. Hazırda ölkəmizin 38 milyard dollara yaxın valyuta ehtiyatı var. Bunun 33,2 mlrd. Dolları Neft Fondunda və 4,4 mlrd. dolları isə Mərkəzi Bankda saxlanılır. Milli valyutadakı pul bazamız isə 7,2 mlrd. manatdır. Yəni kobud desək, dövlət bu gün bütün valyuta ehtiyatını dövriyyədə olan manat kütləsinə dəyişsə, 1 dollar 21 qəpiyə bərabər olacaq. Yəni dövlət istəsə, manatı hələ 8 dəfə də bahalaşdıra bilər. Ancaq bu başqa məsələdir ki, dövlət buna heç vaxt getməz, çünki bu halda valyuta ehtiyatı tam tükənər və ölkənin iqtisadi təhlükəsizliyi sual altında qalar".

İqtisadçının fikrincə, hamı anlayır ki, manatın məzənnəsi iqtisadiyyatın bir nömrəli məsələsi deyil, lakin psixoloji təsiri böyükdür: "Məhz buna görə də bu ilin fevral ayından başlayaraq dövlət valyuta ehtiyatlarını satmaqla manatı bahalaşdırdı. Yəni reallıqda manatın bahalaşması üçün obyektiv heç nə baş vermədi. Sadəcə dövlət daha çox dollar satıb, manatı bahalaşdırdı. Eyni zamanda manat kütləsi də sıxıldı. Belə ki, hətta dövriyyədə olan manat kütləsini də Mərkəzi Bank banklardan depozit kimi yüksək faiz dərəcəsi ilə, 14,5faizlə qəbul edib iqtisadiyyatı pulsuz qoydu ki, manat baha olsun. Əlbəttə, bu xətt davam etdirilsə, manat cüzi devalvasiyaya məruz qalacaq, 1 dollar 1,8-1,9 manat arasında dəyişə bilər".

Əkrəm Həsənovun sözlərinə görə, hazırda tutulan bu xətt iqtisadiyyata ağır zərbə vurur, dövriyyəni, ödəniş sistemini iflic edir: "Buna görə də ehtimal edirəm ki, prezidentin bəyan etdiyi iqtisadi islahatların icrası əsnasında dövriyyəni pulla təmin etmək lazım olacaq və Mərkəzi Bank banklara kreditlər verəcək, depozit faiz dərəcəsini endirəcək. Bu halda ilin sonuna dolların məzənnəsi 2 manatı ötəcək. Böyük ehtimalla yay aylarından başlayaraq dolların tədricən bahalaşmasını görəcəyik və bu proses payızda güclənə bilər".

İqtisadçı ekspert Natiq Cəfərli isə hesab edir ki, yaxın 2-3 ayda dolların məzənnəsində ciddi enmə və ya bahalaşma gözləmir: "Azərbaycanda keçiriləcək beynəlxalq idman yarışları ərəfəsində ölkəmizdə dolların 1.65-1.70 civarında qalması ehtimalı yüksəkdir. Çünki hökumətin də özünün qırmızı xətti var. Əslində çox baha manat hökumətə sərf eləmir. Çünki büdcə öhdəliklərinin yerinə yetirilməsində problemlər yaşana bilər. Ona görə də 1.70 sanki qırmızı cizgidir. Odur ki, son 4 hərracdır ki, məzənnə əsasən dəyişmir. Yəni məzənnədə çox cüzi dəyişikliklər olur ki, buna da dəyişiklik deyilməz. Ona görə də rəsmi məzənnədə ciddi dəyişikliyin olacağını gözləmirəm. Yarışlardan sonra dərhal dolların qiymətinin qalxmasını görməyə bilərik, əsas proseslər payızda olacaq. İlin sonuna kimi dollar 1.90-1.95 manat həddində olacaq".

❑ **Nərgiz LİFTİYEVA**

# Böyük erməni yalanının 102-ci ildönümü

Bu gün ermənilərin "soyqırım" ağlaşması günüdür; **Sabir Rüstəmxanlı:** "Xristian həmrəyliyi getdikcə güclənir..."

**Bu gün qondarma "erməni soyqırımı" iddiasının 102 illiyidir. Hər il bu təqvimlə bağlı ermənilər min cür oyundan çıxırlar. Bəs, görəsən qondarma iddia ilə bağlı düşmənin təbliğat maşını ildən-ilə güclənir, yoxsa zəifləyir?**



Məsələ ilə bağlı danışan VHP sədri, xalq şairi Sabir Rüstəmxanlı "soyqırım"ın tanıdılması üçün erməni təbliğatının illər keçdikcə daha da gücləndiyini düşünür: "Bu proses zəifləmir, əksinə, güclənir. Burada xristian dövlətlərinin rolu var, ermənilərə onlar da yardım edirlər. Xristian həmrəyliyi getdikcə güclənir. Rusların siyasətinin də ermənilərə xidmət etdiyi göz önündədir. Türk dövlətlərinin güclənməsini Rusiya istəmir. Qarabağ məsələsi də ona görə ortaya atılıb. Ərazilərimizi işğal edib ermənilərə verəndə məhz Rusiya bu məqsədi güdürdü. Erməni diasporu da getdikcə yayılır, təbliğat baxımından güclənir. Bir vaxtlar "soyqırım"ın olduğunu deyən dövlətlər indi "soyqırım yoxdur" deyənlərə qarşı cəzalar tətbiq edirlər. Türk xalqına, Türkiyəyə qarşı təzyiqlər etmək üçün ildən-ilə Qərb dünyasında bu məsələni dərinləşdirirlər. Dünyada bu yalanı qəbul edən dövlətlərin sayı artdıqca, təbliğat da güclənir. Vaxtilə Ermənistan SSRİ-nin tərkibində idi və onların siyasətinə uyğun şəkildə addım atırdı. Müəyyən qədər sərhədlər var idi. İndi Ermənistan müstəqildir və başında da terrorçular, dövlətçilikdən xəbəri olmayan şəxslər dayanıblar. Müstəqillikdən istifadə edərək, ildən-ilə Türkiyəyə qarşı fəaliyyətlərini genişləndirirlər. Daha geniş miqyasda anti-islam, anti-türk siyasətini aparırlar. Müstəqil dövlət olmaq da bu məsələdə böyük rol oynayır. Burada illər uzunu Türkiyənin o qədər də əhəmiyyət verməməsi də mühüm rol oynayır. Düzdür, son illərdə vəziyyət bu istiqamətdə bir qədər dəyişib".

S.Rüstəmxanlı güclənən təbliğatın qarşısının alınması yollarından da danışdı: "Ermənilər olmayan bir şey haqqında minlərlə kitab buraxıb. Türkiyə buna cavab verməlidir. Buna uyğun şəkildə təbliğatını qurmalıdır. Həmin dövrün hadisələrini real şəkildə əks etdirən kitablar çap etməli, kinolar çəkilməlidir. Bu məsələdə erməniləri yamsılayıb, onların arxasınca getmək lazım deyil. Amma elə şeylər var ki, ona onların etdikləri ilə cavab vermək lazımdır. Türkiyənin diasporu əslində ermənilərinkindən zəif deyil. Amma erməni diasporu yaxşı təşkilatlanıb, arxalarında erməni kilsəsi, dolayısı yolla da Vatikan dayanıb. Buna uyğun şəkildə Türkiyə müsəlman ölkələrinə bu məsələnin mahiyyətini göstərməlidir. İslam Konfransı Təşkilatında İslam ölkələri parlamentinin üzvü idim. Bir dəfə həmin parlamentin iclasında bu məsələ barədə danışdım. Həmin vaxt Fransada "soyqırım"ı inkar edənlərlə bağlı cəzalar nəzərdə tutulan qanun qəbul olunmuşdu, sonralar bu qanun ləğv olundu. Çıxışımda dedim ki, islam dövlətlərinin bu məsələdən xəbərləri olmalıdır. Türkiyə tərəfi orada dedi ki, elə də əhəmiyyət verməyək, Fransa nə deyirsə desin. Bildirdim ki, təşkilatda 54 ölkə var, hər birinin də BMT-də səsi var. Yaxın qonşu ölkələr olsalar da, nəyisə bilməmə ehtimallarının olduğunu da orada qeyd etdim. Çıxışımdan sonra məlum oldu ki, Suriya, Səudiyyə Ərəbistanı kimi dövlətlərin heç biri məsələnin mahiyyətini bilmirlər. Bir gün sonra Türkiyənin Məclis başqanı ora gələndə özü ilə 500 kitab gətirdi. İslam ölkələrinin parlamentarilərinə paylamaq üçün. Məsələn, bu hadisə ilə bağlı Azərbaycanda normal bir kitab buraxılmayıb. Türk ədəbiyyatından bunları oxuyuruq, amma Türkiyənin bu hadisə ilə bağlı dünya ölkələrində yayılması vacib olan kitabları nəşr etdirməsi çox lazımdır. Ermənilər olmayan şeydən öz əzabkeş obrazlarını yaradırlar. Bu gün dünyanın müxtəlif ölkələrində yaşayan, yalanlarını yayan ermənilər haradan gedib ora çıxıblar? Türkiyə ərazisində əgər onlar öldürülmüşdülərsə, o zaman Amerika, Argentina və digər yerlərə necə gedib çıxıblar? Bu suallar qoyulmalı və bu sualların cavabları verilməlidir. Osmanlı İmperiyası birinci dünya müharibəsi zamanı məcbur idi ki, ona xəyanət edən xalqı ölkənin içərilərinə köçürsün. Dünyanın bütün xalqlarında buna bənzər şeylər olur. Ermənilər köçürülən yerlərdə onlara mal-mülk, torpaq sahələri veriblər. Onların təhlükəsizliyini təmin etmək üçün mühafizə dəstələri təşkil ediblər. Amma kürdlərin arasından keçəndə orada çoxlu toqquşmalar olub, bu zaman ölənlər olub. Bu əlbəttə insanlıq dramıdır, olmamalı idi. Amma o zaman rusların təşkilatçılığı ilə silahlanan 200 min erməni İğdırdən Vana qədər 2 milyondan çox türk öldürüblər. Bəs bunlar insan deyillər? Onların öldürüldüyü dedikləri ermənilərin sayından 8-10 dəfə çox türk öldürülüb. O zaman ermənilər 2 milyon belə deyildilər. İndi sayını qaldırıblar ki, guya 2 milyondan çox erməni həmin hadisələr vaxtı öldürülüblər. Olmayan ermənini türklər nə cür öldürüblər? Bütün bunların hamısı dünyaya çatdırılmalıdır".

Xalq şairi bu istiqamətdə Azərbaycanın tutduğu yolun doğru olmasından da söz açdı: "Xocalı soyqırımı və Qarabağ və Qərbi Azərbaycandan bir milyondan çox soydaşımız çıxarılıb. Bunları dünya görmək istəmir, amma biz zorla bunu onların gözünə soxuruq. Xocalı soyqırımı real faktlarla sübut edilən erməni vəhşiliyidir. Bunları görmədən 102 il əvvəlki unudulan tarix barədə danışmaq absurddur. Bu istiqamətdə türk dünyası səylərini birləşdirməlidir".

❑ **Cavanşir ABBASLI**



# "İçmə" deyirsən, içir, "çəkmə" deyirsən, çəkir..."

## Fazil Mustafa: "Yaxşı ki, Xəzərin suyu şordur, inanın ki, bəzi səlahiyyətli şəxslər içə-içə onun suyunu da qurudardılar"

**"Baxış bucağı"**

**Böyük Quruluş Partiyasının başqanı, deputat Fazil Mustafa ilə budəfəki söhbətimizdə, demək olar ki, qeyri-siyasi mövzulardan danışdıq. Əslində siyasətin dominantlıq etmədiyi, qeyri-siyasi mövzuların "meydan suladığı" ölkədə bəlkə də bu, daha doğru seçim oldu. Hər halda məsələlərə orijinal yanaşmaları ilə çox hallarda publikanın marağını özünə cəlb etməyi bacaran Fazil bəy suallarımıza bu dəfə də maraqlı cavablar verdi.**

***- Fazil bəy, bu yaxınlarda İTV-də maraqlı müzakirələrə qatılmışdınız. Müzakirələrdə bir daha səsləndi ki, Azərbaycan kitab oxuyan ölkələrin sırasında çox aşağı yerlərdə qərarlaşıb. Bu gedişlə biz hara gedirik, niyə durumu dəyişmək istəmirik?***

- Bu gün Azərbaycan cəmiyyətinin ən böyük problemlərindən biri mütailə ilə bağlıdır. Mütaliəyə qarşı sanki bir allergiya yayğınlaşıb. Əlbəttə, bəhanələr kifayət qədərdir, test əzbərçiliyi, sosial vəziyyətin çətinliyi, kitabın bahalığı, məşğulluq, ali təhsilin səviyyəsinin aşağı olması, orta təhsildə oxuma vərdişinin yaradılmaması kimi amillər sadalana bilər. Ancaq bunların hamısı əsassız bəhanələrdir. Mütaliə bir mədəniyyət məsələsidir, oturuşmuş bir cəmiyyət kültürüdür. Bizdə bu kültür çox aşağı səviyyədədir. Bunun tarixi kökləri yazılı ədəbiyyatın daha gec mənimsənilməsi ilə bağlıdır. Yəni XIX əsrdə Axundovla başlayan gerçək yazılı mətnlərdən söhbət gedir. Heç sovet dövründə də bu kültürün yüksək olduğu inandırıcı deyil. Cəmiyyətin yazıb-oxuya bilməsi savadlılıq göstəricisi sayılmaz, elə o vaxtlarda da bayağı mətnlərə daha çox diqqət yetirilirdi. Vəziyyətin düzəlməsi orta təhsil mərhələsində uşaqlarda oxumaq vərdişi yaratmaqdır. Bunun üçün müəllimin özü mütaliəyə maraqlı olmalıdır. Müəllimlərin də təhsil aldığı mühit yetkin bilik və dünya görüş vermirsə, o zaman işlər daha da qəlizləşir.

***- Sizə elə gəlmirmi ki, mütaliə probleminin bir səbəbi də elə məktəbliləri gündəlik dərslərlə yükləməyimizdir? Uşaqlardakı onurğa əyriliyi problemini bir kənara qoyaq...***

- Uşaqları gündəlik dərslərlə yükləməyin o qədər də zərəri yoxdur. Əksinə, uşağa az vaxt buraxmağın daha çox faydası var. İnkişaf etmiş ölkələrdə heç də az dərs yükü nəzərdə tutulmur. Sadəcə, bizdə idman infrastrukturu həm məktəbdə, həm də məktəbdənkənar sferada formal xarakter daşıyır, uşaqların fiziki sağlamlığına ən əhəmiyyəsiz məsələlərdən biri kimi baxılır. Uşağın təhsil və sağlıq probleminin yükü əsasən valideynin üzərindədir, o zaman əgər valideyn maddi cəhətdən imkansızdırsa, o uşaq taleyin ümidinə qalmış olur. Uşaqların bədən tərbiyəsi və fiziki sağlamlıq proqramlarına qatılması çox vacib məsələdir, buna diqqət verilmədikdə sabahımız üçün sağlamlıq promlemini özü ilə daşıyan çox sayda övladlar ortalıqda qalmış olur. Çantanın ağırlığından çox, laqeydliyimizin zərbəsi uşaqlarda həm onurğa, həm də düşüncə əyriliyinin izlərini buraxır.

***- Fazil bəy, nəhayət, siqaretin məhdudlaşdırılması istiqamətində qərar verilmək üzrədir. Artıq prezidentin də iradəsi ortadadır və çətin ki, siqaret mafiyası direniş göstərsin. Amma bu qanunun işləyəcəyinə şübhələr var. Necə bilirsiniz, "siqaretsiz yaşaya bilməyən" insanlarımız məhdudiyyətə əməl edəcəkmi?***

- Yaxşı bilirsiniz ki, əsrlər boyu, siqaret də çəkilib, spirtli içkilər də içilib, kriminal əməllərə də yol verilib. Hansısa məhdudlaşdırıcı addımlar bu kimi neqativ halların kökünü kəsməyə qadir deyil. Əslində qanunvericilikdə bu cür məhdudlaşdırmalar siqaretə mənfi münasibəti olanların hüquqlarını qorumağa daha çox yönəlib. Çünki siqaret çəkənlər özlərinə qəsd etməklə yanaşı, başqalarının da səhhətinə zərər vururlar. Müəyyən məhdudiyyətlər olanda artıq siqaret çəkməyənlər öz haqlarını etik-mənəvi platformada qoyulan tələb kimi deyil, bilavasitə hüquq platformasında yer alan tələb kimi irəli sürə biləcəklər. Yəni "öz canın cəhənnəmə, mənim canımı zəhərləmə!" Prezidentin siqaretlə bağlı mövqeyi tütün mafiyası qarşısında antisiqaret kampaniyasını genişləndirmək istəyənlərin mövqeyini xeyli möhkəmləndirdi. Ümid edək ki, qanunun müddəaları işləyəcək, ən əsası da budur ki, bu məsələdə cəmiyyət üzvləri saxta üzgörənlik etməsinlər və qanun pozuntusuna qarşı açıq mövqe ortaya qoysunlar.

***- Dövlət başçısı daha bir qanunsuzluğu durdurdu: Yasamalda parkı talayıb yerində ev tikənlərin işi pozuldu. Amma qəribəsi və təəccüblüsü budur ki, elə eyni vaxta başqa bir rayonda parkın məhv edilməsi, tikintiyə hazırlıq işlərinin görülməsi xəbəri yayıldı. Sizcə, "balaca padşahlar" niyə qanunlara əməl etmək bir yana, heç olmasa baş verənlərdən dərs almaq istəmirlər?***

- Yasamaldakı tikinti zamanı ağacların vəhşicəsinə məhv edilməsini şübhəsiz ki, hamı kimi prezident də ürək ağrısı ilə izləyib və dərhal məsələyə reaksiya bildirib. Burada bəzi məmur və iş adamları çevrəsinin anlamadığı bir məqam var ki, o da Bakının çətin təbiəti ilə bağlıdır. Paytaxtdakı şoranlıq, nəmlik, qumsallıq və küləyə görə bir ağacı yetişdirməyin necə çətinliklə baş verdiyini görünür hər kəs anlamaq istəmir. İnsanlarımızın biznes maraqlarını anlayışla qarşılamalıyıq, ancaq sahibkar da yer seçəndə diqqət yetirməlidir ki, ekoloji problemlərlə qarşılaşmasının nəticələri ilk növbədə özü üçün ağır olacaq. Ona görə də hamılıqla ağacların, yaşıllıqların qorunmasına daha çox diqqət yetirməliyik.



***- Fazil bəy, qarşıdan yay mövsümü gəlir və sizin ənənəvi qaldırdığınız məsələni xatırlatmaq yerinə düşər. Xəzərin hasarlanmasını nəzərdə tuturam. Bu yaxınlarda plenar iclasda dəniz kürüsünə, balığına həsrət qalan insanlardan danışdınız. Amma insanları dənizə həsrət qoyanlar da öz işindədir. Belə görünür ki, mühüm yarışlara ev sahibliyi edən Bakı bu dəfə də Xəzəri qonaqlara həsarın üstündən göstərməli olacaq. Elə isə nə etməli?***

- Bakının gözəlliyi məhz Xəzər dənizinin sahilində olması ilə müəyyənləşir. Biz isə Allahın verdiyi bu nemətə qarşı çox nankor davranırıq. Ağacların kütləvi şəkildə məhv edilməsi ilə dənizin hasarlanması arasında mahiyyətcə elə bir fərq yoxdur. İnsanlarımız həqiqətən də bu dənizin hasarlanmasından narahatdırlar. Bu, həm də bir ekoloji fəlakətdir. Son illərdə Bakı bağlarında ağ və qara şanı kimi üzüm növlərinin yoxa çıxması məhz dənizdən gələn havanın qarşısının alınması ilə bağlıdır. Yaxşı ki, Xəzərin suyu şordur, inanın ki, bəzi səlahiyyətli şəxslər içə-içə onun suyunu da qurudardılar. Parlamentdə balığın qiyməti məsələsinə toxundum. Doğrudan da təəccüblüdür, ot vermirsən, ət vermirsən, öz-özünə qidalanan məxluqdur, necə olur ki, Xəzərdən tutulan balığın qiyməti digər Xəzəryanı ölkələrdəki qiymətlərdən müqayisəolunmaz dərəcədə bahadır?

**"Leş mafiyası" ona görə mövcuddur ki, aldanmağa hazır olan leşlər var"**

***- Parlament çıxışınızda icra başçısını jurnalistdən müdafiə etməyinizə bir çoxları təəccübləndi. Sizə elə gəlmirmi ki, bir sıra məmurlar artıq sual verən jurnalistə cavab vermək ənənəsinə də yadırğayıb?***

- İcra başçısını müdafiə etməyim əslində jurnalistin etikaya sığmayan davranışı ilə bağlı idi. Youtubedə materialı yerləşdirib yazmışdılar ki, icra başçısı jurnalistə sillə vurdu. Marağımı çəkdi, həmin videonu izlədim və həqiqətən də belə bir xəbərin yayılmasının jurnalistikamızın özü üçün yanlış bir tendensiya olduğunu gördüm. İcra başçısını da az-çox tanıyırdım, onun qadına əl qaldıracaq səviyyədə kobudluq etməsinə qətiyyən inanmazdım. Təxminlərim doğru çıxdı, iş başında olan məmuru jurnalist bütün vasitələrlə təxribata çəkməyə çalışır, sonda isə başçı burnunun içinə girən jurnalistin kamerasını əli ilə itələyərək oradan uzaqlaşır. Əlbəttə, çıxışımda qeyd etdim ki, jurnalistin informasiya əldə etmək hüququ var və bütün məmurlar bu hüquqa sayğı ilə yanaşmalıdırlar. Lakin jurnalistin zorla iş rejimi içində olan məmurdan informasiya qoparmaq hüququ olmamalıdır. Burada jurnalistin yaşlı bir məmura qarşı bu cür davranışını doğru hesab etmədiyimə görə belə bir mövqe sərgilədim. Dediyiniz bir məsələ ilə razıyam ki, Azərbaycanda vəzifəli şəxslərin əksəriyyətinin mətbuatla əlaqələrində arzuladığımız şəffaflıq yox dərəcəsindədir, bu da jurnalistlərin məlumatları dəqiqləşdirmək imkanlarını xeyli məhdudlaşdırır.

***- 400 minlik toy edən məmur əhvalatına - "liftçi qızı"nın toyunu nəzərdə tuturam - münasibətiniz də maraqlıdır. Necə bilirsiniz, bu müzakirələrdə tərəflərin hansı haqlıdır? Ümumiyyətlə, toy əhvalatının cəmiyyətdə belə rezonansa səbəb olmasının səbəbini nədə görürsünüz?***

- Həmin toyla bağlı ziddiyyətli məqamlar olduğu üçün kiməsə haqsızlıq olmasın deyə, münasibət bildirmək doğru olmaz. Konkret o toyla bağlı demirəm, ancaq indiki Azərbaycan toyları vəhşilikdən, harınçılıqdan, israfçılıqdan ibarət olan və hamımızın kütləvi şəkildə dəstəklədiyimiz bir adətdir və bu toylarla ailə xoşbəxtliyinin deyil, daha çox ailə problemlərinin əsası qoyulur. Hansısa yolla bu toyları sadələşdirmək lazımdır, toy mafiyasının insanlarımıza soxuşdurduğu mənasız yemək zibilliyindən qurtulmaq və iki gəncin gələcək xoşbəxtliyi üçün daha real dəstək istiqamətində düşünmək lazımdır.

***- Parlamentdə restoranlara at-eşşək ətinin verilməsindən danışdınız, tədbir görülməsini istədiniz. Ötən günlərdə nəsə dəyişibmi? Fakt budur ki, artıq toya dəvət alanlar ət yeməklərinə əl uzatmağa ehtiyatlanır. Siz necə, toylara dəvət alanda, evdə yeyib gedirsiniz, yoxsa qayıdandan sonra?***

- At, eşşək və it ətinin meydan suladığı ərzaq bazarımızda artıq halallıq duyğusu olan insanların da xidmətlərinə şübhə ilə yanaşmağa başlayırsan. Azərbaycanda hamı dəqiq bilir ki, hansı zirzəmidə hansı brend sular doldurulur, hansı spirtli içki hansı zərərli vasitələrlə saxta yollarla hazırlanır və başıboş insanlarımızın mədə-bağırsağını necə sıradan çıxarır. Kolbasaların, sosiskaların, dönərlərin tərkibi də tam müəmma ilə doludur. Ancaq nədənsə bunların hamısı bazarımızdadır, hamısının da möhürü üstündədir. Ötən il Kənd Təsərrüfatı Nazirliyi 70 ton mənşəyi məlum olmayan ət məhsulunu aşkar edərək dövriyyədən çıxarıb. Aşkar edə bilmədikləri isə bundan qat-qat artıqdır. Ona görə də bu mövzuda həyəcan təbili çalmağı vacib hesab edirik. Özümə gəldikdə, toylarda bacardıqca yeməkdən qaçmağa çalışıram, hədsiz ac olanda ətin mənşəyi barədə dediklərimi unudaraq bir şeylər yeməyə çalışıram.

***- Ölkədə "leş mafiyası"nın mövcudluğu haqda deyilənləri bölüşürsünüzmü? Sizcə, niyə cəmiyyət bu kökə düşdü?***

- "Leş mafiyası" ona görə mövcuddur ki, cəmiyyətdə yeriyən, danışan, problemlərə biganə yanaşan, könüllü şəkildə aldanmağa hazır olan leşlər var.

***- Fazil bəy, yəqin diqqət edirsiniz, intiharlar artan silsilə üzrə davam edir, özü də müxtəlif yaş qrupları üzrə. Səbəb və çıxış yolları haqda nə düşünürsünüz? Xəbərə senzura, sizcə, çıxış yoldurmu?***

- İntiharların son vaxtlar artması və bir çox tanınmış şəxslərin intihar etməsi hamını ciddi şəkildə narahat etməkdədir. Məncə, bütün kateqoriyadan olan xəbərlərə senzura qoyulması ancaq həmin motivli hadisələrin sayının artmasına səbəb olur. Xəbər almalısan ki, problemə də daha həssas münasibət sərgiləyəsən. Burada tək bir çıxış yolu var, o da insana statistik deyil, hüquqi dəyər verilməlidir. İnsan cəmiyyətdə öz seçiminə, öz iradəsinə uyğun mövqe qazana bilməyəndə fiziki anlamda olmasa da, mənəvi anlamda hər gün intihar filmini izləyir. Çox vaxt deyirlər ki, maarifləndirmə zəifdir. Bu fikirlə razı deyiləm. Maarifçiliyə neqativ münasibəti olan bir cəmiyyətdə hansı formada güclü maarifləndirmə işi aparmaq olar? "İçmə" deyirsən, içir, "çəkmə" deyirsən çəkir, o halda "intihar etmə" desən, guya intihara yaxın durmayacaq?

**Elşad PAŞASOY**



# Vətəndaş mövqeyi olmayanlar üçün

Elşad PAŞASOY
epashasoy@yahoo.com

**Avtobusun arxa oturacaqlarından birində əyləşib elə çantadan qəzeti çıxarmışdım ki, yanımdakı yaşlı kişi "hamısı yalan-plan yazır" deyə, "hökmünü" verdi. Bir istədim soruçam ki, sonuncu dəfə hansı qəzeti, hansı yazını oxumusan, gördüm yox, ağsaqqalla diskussiyanın mənası yoxdur. O da mənim "boş işlərlə" məşğul olduğumu görüb yerini rahatlayıb şüşəyə tərəf dirsəkləndi...**

Yoloyu sürücü bir neçə dəfə qəza vəziyyəti yaratdı, siqaret çəkdi, telefonla dispetçerə zəng edib onun "vaxtına girən" həmkarından şikayətləndi, sərnişinlərə qışqırdı. Amma həmin bu "düz danışan" kişi də daxil, kimsə səsini çıxarmadı.

Metrostansiyaların birinin qarşısındakı dayanacaqda arxa sıradakı sərnişin 20 qəpikliklə şüşəni döyəclədi, xeyri olmadı, sürücü "qabaq qapı açıqdır, düşmək istəyən gəlib düşsün" deyib də arxa qapını açmadı. Arqumenti də bu oldu ki, "arxa qapıdan düşən qaçır". Bu, belə.

O gün redaksiyanın həyətində küçə itləri ilə oynayan, onları qucaqlayan uşaqlara bunun təhlükəli olduğunu demişdim ki, yanlarından keçən yenə yaşlı kişi aşağıdan-yuxarı pəncərəyə boylanıb "jurnalistsiniz də, yazın, gəlib bu itləri küçədən yığışdırsınlar" deyə, "çıxış yolu"nu göstərdi - baxmayaraq ki, dəfələrlə elə bu itlərdən də yazmışıq. Amma heç valideyn eyvana çıxıb uşağına təpinmir ki, "a bala, it parçalayar, xəstəliyə yoluxarsan".

Başqa misal: günün birində redaksiyaya zəng edən başqa ağsaqqal "a bala, qabaqlar sizin qəzeti oxuyurdum, indi gözlərim görmür, amma deyəsən, siz də daha bu millətin dərd-sərindən yazırmısınız, qiymətlər od tutub yanır, pensiyam çörəyə güclə çatır", daha nələr. Ağsaqqala dedim ki, az qala, hər gün bahalıqdan yazırıq, səbəblərini axtarırıq. Qane olmadı, "görünür qabaqkı kimi sərt yazmırsınız" - dedi.

Vəziyyət belədir, avtobus sürücüsünə dayanacaqda düşmək üçün qapını açdıra bilməyən də, küçə itləri ilə bacarmayan da, qiymətlərdən şikayətlənən də durumu onsuz da yaxşı olmayan jurnalistlərin üstünə kükrəyir. Hələ redaksiyamıza gəlib yekə-yekə danışan vətəndaşlarımızı demirəm. İnanın ki, onlar "JEK" müdirinin qəbuluna arayış almaq üçün gedəndə belə, bu qədər cəsarətli olmurlar.

Bu gün ölkədə ən tirajlı qəzetlər gündə 4-5 min nüsxə ilə çıxır. 10 milyonluq ölkə üçün acınacaqlı rəqəmdir. Bəlkə ömründə əlinə qəzet alıb oxumayanlar da "mətbuat hara baxır" sualına cavab istəyir. Soruşan gərək, "bəs, sən hara baxırsan, sənin vətəndaş mövqeyin nədən ibarətdir, ümumiyyətlə, mövqeyin varmı?!"

Bir ölkədə uğura nail olmağın yolu həm də orada ictimai nəzarətin olmasından keçir. Bizdə varmı o nəzarət? Yox! "Mənə nə" yanaşması bizi günbəgün geri aparır. Bir çoxları istəyir ki, onların əvəzində kimsə əziyyət çəksin. Qonşu zibili evindən süpürüb zibilqabı əvəzinə eyvandan aşağı tullayır, dinmirik. Qəssab heyvanı kəsib qanını küçəaşağı axıdır, özümüzü görməzliyə vururuq. Yaxud piyada keçidi qoyub uşağı ilə birgə yolun təhlükəli hissəsindən keçir, "mənə nə düşüb" deyirik. Qonşu eşşəyini "dana əti" yerinə satır, di gəl nə satanı, nə alanı kimsə qınamır. Elə restorandakı ifartçılıqdan hamı danışır, amma heç kim irəli durub nümunə göstərmir. "Məndən ötdü" yanaşması həyatımıza hakim olub. İntiharlar həm də bir-birimizə laqeydliyimizin nəticəsidir.

Mətbuata gəldikdə, son vaxtlar media bir sıra qanunsuzluqların dayandırılmasında vasitəçi rol oynayıb. Xatırlayaq: Mikayıl Müşfiqin büstü, Yasamalda məhv edilən yaşıllıq məsələsi, "Sovetski"dəki məscid olayı... Ölkə rəhbəri məhz mediadan xəbər tutdu və dərhal reaksiya verdi. Deməli, prezident mətbuata daha həssasdır, nəinki sadə vətəndaş.

"İctimai nəzarət olmasa, biz istədiyimizə nail ola bilmərik. Vətəndaşlar daha da fəal olmalıdırlar. Onlar xoşagəlməz hallarla üzləşəndə bu barədə məlumat verməlidirlər ki, biz işləri tənzimləyək, xoşagəlməz halların qarşısını alaq". Bu, ölkə başçısı İlham Əliyevin mövqeyidir. Ölkənin birinci şəxsi vətəndaşın etiraz hüququnu tanıyır, onu fəal olmağa çağırır. Yetər ki, medianı qınayan vətəndaş da bir az fəal olsun. İnanın ki, o halda "balaca padşahlar" da özlərini yığışdıracaq...

Bir neçə il əvvəl Xətaidə yaşıllıq zolağını hansısa sahibkar almışdı. Gecə ilə 50-60 illik şam ağaclarını da kökündən çıxarıb aparmışdılar. Sakinlər xəbər tutandan sonra tonqal çatıb parkda gecələdilər, sabiq deputat İqbal Ağazadə hadisə yerinə gəldi, məsələ ictimailəşdi, rəhbərliyə xəbər çatdı. Və budur, həmin ərazidəki parkda uşaqlar oynayır.

# "Azərbaycandan İŞİD-ə qoşulmaq istəyənlərin sayı azalıb"

## Elxan Şahinoğlu: "İŞİD bəlkə də son ilini yaşayır..."

**İŞİD terror qruplaşması "paytaxt"ını Suriyanın Rakka şəhərindən ölkənin başqa bir şəhəri olan Deyr-ez-Zora köçürüb. Bu haqda ABŞ Müdafiə Nazirliyindəki mənbəyə istinadən "Fox News" bildirib. Məlumata görə, ABŞ-ın başçılıq etdiyi koalisiya qüvvələri və Suriya ordusunun yaxınlaşan hücumunu nəzərə alan İŞİD-in yüzlərlə lideri Rakkanı tərk ediblər.**



Elxan Şahinoğlu

**Politoloq Elxan Şahinoğluna** görə, İŞİD bir müddət öncə özünü çox rahat hiss etsə də, indi elə deyil: "Bir müddət öncə İŞİD İraqda və Suriyada müxtəlif şəhərləri ələ keçirmişdi. Ən böyük iki şəhər də İraqda Mosul, Suriyada isə Rakka idi. Ancaq artıq böyük dövlətlər İŞİD-ə qarşı amansız mübarizəyə başlayıb. Bunların içərisində Türkiyə, Rusiya, İranın müxtəlif qüvvələri var. Amerikanın özü də bu prosesə qoşulub. Aydındır ki, Mosul və Rakka ətrafında İŞİD-in mövqelərinə ciddi zərbələr endirilir və endiriləcək. İŞİD-in vəziyyəti Mosulda daha ağırdır. Bağdadinin şəhəri tərk etməsi də gələn xəbərlər arasındadır. Düşünürlər ki, Rakkaya da böyük hücum olacaq. Yəqin ki, bununla bağlı özlərinin kəşfiyyat məlumatları da var. Çünki Rusiya, silahlı kürd qruplaşmaları, türk ordusu, Amerika da Rakkanı ələ keçirmək üçün müxtəlif planlar cızırlar. Düşünürəm ki, artıq İŞİD leqal fəaliyyətdən, qeyri-leqal fəaliyyətə keçir. Leqal fəaliyyət o idi ki, ordu yaradıb, müxtəlif şəhərləri ələ keçirərək, orada öz üsul-idarəsini formalaşdırmışdı. Ancaq indi, tipik terrorçu təşkilatlar kimi mağaralara, gizli yerlərə çəkilməyə çalışacaqlar. Aydındır ki, onların şəhərlərdən meydan oxuması mümkün deyil".

E.Şahinoğlu hesab edir ki, onlar yeni şəhərdə təşkilatlana bilməzlər: "Beynəlxalq koalisiya formalaşsa, Rusiya ilə Amerika ortaq məxrəcə gələrlərsə, güclü hücumlar başlayacaq. İndi də hücumlar olsa da bu, bir qədər xaotikdir. Amerika bütün gücləri birləşdirə bilərsə, İŞİD-ə qarşı vahid cəbhə yaranacaq. Aydındır ki, İŞİD bu cür vahid cəbhə qarşısında aciz qalar. Ona görə də hesab edirəm ki, geri çəkilsələr, onların bundan sonra ordu yaratmaları mümkün deyil. "əl-Qaidə" də vaxtilə Əfqanıstanda özünə məkan qurmuşdu. İndi isə onlardan da əsər-əlamət yoxdur. Düşünürəm ki, İŞİD də elə bir mövqeyə sıxışdırılacaq ki, ordu şəklində savaşa bilməyəcəklər. Ancaq kiçik qruplarla müxtəlif ölkələrə yayılaraq Suriyada, İraqda, Əfqanıstanda, Yəməndə məxfi şəkildə fəaliyyət göstərərək, beynəlxalq aləmə meydan sulaya bilərlər. İŞİD bir ordu, böyük qruplaşma olaraq, bəlkə də son ilini yaşayır. Eyni zamanda digər ölkələrdən də onlara qoşulanların sayı azalıb. Vaxtilə Azərbaycandan da İŞİD-ə qoşulanlar var idi. İndi isə bu cür xəbərlərin xeyli azaldığını görürük. Çünki onlara qoşulmaq istəyənlər də artıq görürlər ki, İŞİD-in vəziyyəti getdikcə ağırlaşır. İnsanlar əvvəllər ona görə bu qruplaşmaya qoşulurdular ki, İŞİD böyük mövqelər əldə etmişdi. Düşünürdülər ki, ona qoşulmaqla İŞİD-ə daha da güc qatacaqlar. İndi isə görürlər ki, İŞİD mövqelərini ard-arda itirmək üzrədir, sıraları da seyrəlir. Belə olduğu halda heç kim gedib onlara qoşulub, ölmək istəmir. Artıq Türkiyə üzərindən sərhədi keçmək də əvvəlki illərdə olduğu kimi, mümkün deyil. Lakin İŞİD-ə özünü mənəvi cəhətdən bağlı hesab edən terrorçuların sayı artıb. Onlar yaşadıqları ölkələrdə terror törətməklə, İŞİD-ə bağlı olduqlarını nümayiş etdirirlər. Yəni bu terror qruplaşmasına birbaşa fiziki olaraq qoşulmayıb, mənəvi bağlı olduqlarını bu cür göstərirlər. Məsələn, Sank-Peterburq metrosundakı partlayışı qeyd edə bilərik. Həmin partlayışı həyata keçirən və ona əmr verən heç Suriya və İraqda İŞİD sıralarında döyüşməyib. Ancaq ideoloji baxışları eyni olduğu üçün bu cür əməlləri həyata keçirirlər. Eyni zamanda son günlər Fransada baş verən hadisəni də qeyd edə bilərik. Bələləri bundan sonra da olacaq, lakin gedib birbaşa İŞİD-ə qoşulmaq isə artıq keçmişdə qalıb".

Rakka Suriyanın şimalında yerləşir. Şəhər 2014-cü ildə İŞİD tərəfindən tutulub və qruplaşmanın de-fakto paytaxtı hesab edilir. Deyr-ez-Zor isə ölkənin şimali-şərqində, Rakkanın təxminən 130 kilometrliyində yerləşir.

❑ **Əli RAİS**

# Parlamentin danışmayan deputatları

## Danışan həmkarları onlar haqda nə düşünür?

**Milli Məclisin deputatı təkcə təmsil etdikləri seçiciləri deyil, həmçinin lazım gəldikdə xalqı təmsil edən ictimai-siyasi fiqur sayılır. Bu baxımdan deputatların istər siyasi, ictimai, sosial, istərsə də insan haqları, media mövzularında aktiv olması zəruridir. Ancaq çox az sayda deputat var ki, onlar mütəmadi olaraq parlamentin müzakirələrində iştirak edir, mətbuata açıqlamalar verir.**



Bu deputatlardan Zahid Oruc, Fərəc Quliyev, Fəzail Ağamalı, Fazil Mustafa, Vahid Əhmədov, Qüdrət Həsənquliyev, Siyavuş Novruzov, Əli Məsimli, Tahir Kərimli və digərlərini qeyd etmək olar. Parlamentdə olduğu müddətdə bir dəfə də olun səsi eşidilməyən, seçicilərinin problemlərini səsləndirməyən, müzakirəyə çıxarılan qanun layihələrinə münasibət bildirməyən, passivlik nümayiş etdirən, məsələlərə yalnız seyrçi qalan, simasını belə tanımadığımız deputatlar isə çoxluq təşkil edir. Bu deputatlar yalnız parlamentin gündəliyinə çıxarılan sənədlərə səs verməklə işlərini bitmiş hesab edirlər.

Milli Məclisin səssiz deputatlarından Gəncədən seçilən Naqif Həmzəyevi, Abel Məhərrəmovu, Hüseynbala Mirələmovu, Elçin Quliyevi və bir çox digərlərini qeyd etmək olar. Bəzi deputatlar isə qıcıq doğran ifadələrlə gündəmə gəlir, tanınırlar. Məsələn, Astan Şahverdiyev, Hadı Rəcəbli, Araz Əlizadə və sairə.

Bəs deputatların parlamentdə susması nə dərəcədə doğrudur? Deputatların bu cür həmkarlarına münasibəti nədir? Məsələ ilə bağlı deputat Fərəc Quliyevin fikirlərini öyrəndik: "Həmkarlarım haqqında bu barədə fikir bildirməyim doğru olmazdı, bu əsasən jurnalistlərin işidir, onlar hər şeyi müşahidə edirlər. Amma deputat bir bölgədən seçilməyinə baxmayaraq bir ölkənin bütün tale yükünə cavabdehdir, qanunverici orqanda bütün məsələlərlə bağlı narahatlıqlarını səsləndirməli, məsələlərin həlli ilə bağlı təkliflərini bildirməlidir. Xüsusilə də bölgədə işlər aparmalı, xarici dövlətlərdə ölkəmizi təmsil etməlidir və sairə. Amma mən hesab etmirəm ki, parlamentdə az çıxış edən deputatlar danışmırlar. Bir qrup deputat var ki, parlamentdə çıxış etməməklərinə baxmayaraq xarici ölkələrdə ölkəmizi yaxşı təmsil edir, bölgələrdə faktiki olaraq işlər aparırlar".

**Deputat Fazil Mustafa** isə hər kəsin tutduğu mövqeyə görə özü cavabdeh daşıdığını bildirdi: "Bəlkə bizim də fəaliyyətimiz kimlərisə qane etmir. Bəlkə də bizim də fəal mövqe tutmağımız, hansısa çıxışlar etməyimiz kimisə xoşuna gəlmir. Bu bir yanaşma məsələsidir. Şəxsən mənim düşüncəm budur k, əgər bir yerdən maaş alırıqsa, azacıq da olsa bunun üzərimizdə haqqı varsa, bu haqqı qaytarmaq lazımdır. Yüksək səviyyədə olmasa da, ən azı gücün çatan səviyyədə bunu etməyə borclusan. Çünki hər bir şeyin halallıq tərəfi də var. Yəni bu, ola bilsin ki, kimsə yaxşı çıxış etmək qabiliyyətinə və yaxud müzakirələrdə aktiv iştirak etmək qabiliyyətinə malik deyil, o da müxtəlif maddi və ya başqa formada seçicilərinə ən azı dəstək verməli, seçicilərini qəbul etməli, onların problemləri ilə məşğul olmalıdır. Belə deputatların da sayı kifayət qədədir. Bəlkə də üzdə olan deputatlar daha çox diqqət cəlb edir. Amma konkret olaraq vicdanla seçiciləri üçün çalışan deputatlar kifayət qədər var. İndi bunların içərisində ola bilər ki, fəaliyyətləri kimlərsə qane etmir, əlbəttə ki, hər kəsi razı salmaq mümkün deyil. Amma hesab edirəm ki, hər kəs gücü çata minimum səviyyədə bu işləri görməyə çalışmalıdır. Çalışmalıdır ki, bu məsələlərdə müəyyən bir seçicinin narazılığını ortadan qaldırmış olsun və cəmiyyətin yaxşı mesajlar versin, millət vəkili imicini uca tuta bilsin. Məsələnin mahiyyəti əsas budur".

❑ **Xalidə GƏRAY**

## Müharibə zərurəti sülh şansına qarşı - qaçılmaz gəlişmə



**Mayın 1-dən 5-dək Azərbaycan və Türkiyənin Silahlı Qüvvələrinin birgə döyüş atışlı taktiki təlimləri keçiriləcək. Xəbər verildiyi kimi, artıq təlimlərə qatılacaq Türkiyə ordusunun şəxsi heyətinin Azərbaycan hərbi hava bazalarından birində təntənəli qarşılanma mərasimi olub. Qardaş ölkə hərbi qulluqçularını Azərbaycanda hərbi birliyin zabiti, polkovnik Münasib Babayev və Türkiyənin ölkəmizdəki hərbi attaşesi, briqada generalı Zafer Ocak qarşılayıb. Türkiyə hərbi qulluqçuları təlim dövründə yerləşəcəkləri "N" saylı hərbi hissəyə yola düşüblər.**

# İşğalçıya ortaq güc nümayişi: türk hərbçiləri Qarabağda

### İki qardaş ölkə bu il üçün ilk birgə möhtəşəm təlimlərə başlayır; Türkiyə-Azərbaycan ortaq hərbi manevrləri zamanı isə prezident Ərdoğan Rusiyada səfərdə olacaq - incə ismarış, amma kimə?..

Türkiyə nümayəndə heyətinin rəhbəri polkovnik Hakan Açıkgöz birgə təlimlərin vacibliyini vurğulayaraq qeyd edib ki, keçirilən təlimlərdə qazanılan təcrübə hər iki ölkənin gələcək əməliyyat planlarına müsbət təsirini göstərəcək. Təlimlərin əsas məqsədi Azərbaycan və Türkiyə orduları arasında təcrübə mübadiləsini həyata keçirməklə koordinasiyanı inkişaf etdirmək, qərargahların müştərək planlaşdırmaları, bölmələrin hazırlığı və əməliyyatları icra etmə qabiliyyətini yüksəltməklə iki ölkənin hərbi bölmələrinin qarşılıqlı fəaliyyətinə nail olmaqdır.

Birgə təlimlərdə şəxsi heyət, zirehli texnika, artilleriya qurğuları və minaatanlar, Hərbi Hava Qüvvələrinin döyüş və nəqliyyat helikopterləri, habelə qruplaşmanın havadan mühafizəsi məqsədi ilə müasir müdafiə kompleksləri ilə silahlanmış hava hücumundan müdafiə və zenit-raket bölmələri iştirak edəcək. Təlimlərə hazırlıq dövründə türkiyəli hərbçilər üçün bir sıra mədəni-kütləvi tədbirlərin keçirilməsi planlaşdırılıb.

*****

Qeyd edək ki, Azərbaycan ordusunun təkbaşına keçirdiyi növbəti genişmiqyaslı hərbi təlimlər (16-21 aprel) təzəcə başa çatıb. İndi isə Türkiyə ilə hərbi manevrlər başlayır ki, bu da şübhəsiz ki, ordumuzun döyüş qabiliyyətinin daha da artırılması baxımından çox önəmlidir. Əlbəttə ki, hər iki təlim ilk növbədə işğalçı Ermənistana növbəti ciddi mesajdır. Azərbaycan xalqının heç vaxt işğal rejimi ilə barışmayacağı, müharibənin bitmədiyi haqda düşmən tərəfə və onun havadarlarına daha bir siqnaldır.

İşğal rejimi davam etdikcə, belə təlimlərə də sözsüz ki, ara verilməyəcək. Yeri gəlmişkən, 2017-ci il ərzində Türkiyə, Gürcüstan və Azərbaycan arasında da ortaq təlimlər nəzərdə tutulub ki, bu da ordumuzun döyüş qabiliyyəti və təcrübəsinin yüksəlməsinə növbəti töhfə olacaq.

O ki qaldı təcrübə mübadiləsinə, əlbəttə ki, Azərbaycan ordusunun Türkiyə silahlı qüvvələrindən öyrənəcəyi çox şey var. Çünki qardaş ölkə güclü və döyüşkən və modern orduya sahibdir. Xüsusən son illər bu ordu çətin dağ şəraitində PKK terrorçuları ilə mübarizədə böyük təcrübə qazanıb ki, bu da Dağlıq Qarabağda yuva salmış erməni terrorçuları ilə mübarizədə Azərbaycana çox gərək ola bilər.

*****

Yada salaq ki, ötən ilin 4 günlük aprel savaşından əvvəl və sonra da iki ölkə silahlı qüvvələrinin birgə hərbi təlimləri (Konya) keçirilmişdi. Özü də o vaxt Türkiyə və Rusiya arasında "Su-24" presedentinə görə gərgin bir dönəm yaşanırdı. Maraqlıdır ki, o zaman Rusiya və Ermənistanın bir sıra siyasi və ekspert dairələrində Azərbaycanın aprel hərbi uğurunda Türkiyə amilinin rolu xüsusi qabardılmışdı.

İstənilən halda, iki qardaş ölkənin ortaq təlimlərinin yenidən başlaması çox mühüm hadisədir və ümid edək ki, həm də keçən ilin aprelindəki hərbi uğurun davamının özünəməxsus xəbərçisidir. Bu xüsusda Türkiyə nümayəndə heyətinin rəhbərinin "təlimlərdə qazanılan təcrübə hər iki ölkənin gələcək əməliyyat planlarına müsbət təsirini göstərəcək", sözləri diqqət çəkir.

Eyni zamanda, təlimlərin hədəflərindən biri kimi əməliyyatları icra etmə qabiliyyətini yüksəltməklə iki ölkənin hərbi bölmələrinin qarşılıqlı fəaliyyətinə nail olmaq da çox önəmlidir. Bu, o deməkdir ki, real döyüş əməliyyatları zamanı Türkiyənin ölkəmizə hərbi dəstəyi ən azından bu formada özünü göstərə bilər.

**Türkiyə nümayəndə heyətinin rəhbəri polkovnik Hakan Açıkgöz: "Təlimlərdə qazanılan təcrübə hər iki ölkənin gələcək əməliyyat planlarına müsbət təsirini göstərəcək"**

Onsuz da düşmən ölkə illərdir Azərbaycan Silahlı Qüvvələrinin müxtəlif ordu bölmələri və strateji hərbi hissələrində ən azından onlarla türk hərbi təlimatçıların çalışdığını iddia edir. Qoy düşmən elə də bilsin. Başqa yandan, qardaş Türkiyə Azərbaycanın 1 nömrəli təbii müttəfiqidir və iki ölkə arasında hərbi əməkdaşlıq səviyyəsi Rusiya-Ermənistan müttəfiqliyi səviyyəsinə də qalxa bilər.

*****

Əslində Qarabağ problemi o vaxt ədalətli həllini tapacaq ki, bölgədə Rusiya-Ermənistan hərbi-siyasi müttəfiqliyi bütünlüklə Türkiyə-Azərbaycan hərbi müttəfiqliyi ilə neytrallaşdırılacaq. Regionda hərbi-siyasi balans bu yolla yaranacaq. Doğrudur, Azərbaycan-Türkiyə münasibətləri kifayət qədər yüksək səviyyədədir, iki qardaş dövlət hərbi-texniki sahədə də dərin əməkdaşlığa malikdir. Ordumuzun hərbi parkı həm də Türkiyə silah-sursatı və döyüş texnikası hesabına kompleksləşdirilir. Ortaq hərbi təlimlər, təcrübə mübadiləsi də öz yerində.

Amma etiraf edək ki, hələlik ikitərəfli hərbi əlaqələr İrəvan-Moskva əlaqələri səviyyəsində deyil. Bundan ötrü Ankara və Bakı arasında yüksək səviyyəli strateji hərbi sazişə və Azərbaycan ərazisində, məsələn, Naxçıvanda heç olmasa, bir Türkiyə hərbi bazasının yaradılmasına ehtiyac var.

Deyilə bilər ki, Türkiyə NATO üzvü olduğu, Azərbaycan qanunvericiliyi də ölkəmiz ərazisində digər dövlətin hərbi bazasını yasaq etdiyi üçün bu - müşkül məsələdir. Lakin qanunlar Quran ayəsi deyil, onları insanlar hazırlayır. Yəni milli maraqlar hər şeydən öndə tutulursa, məsələnin hüquqi tərəfini nizamlamaqda problem ola bilməz. Ən azından, Qars müqaviləsi Türkiyəyə Naxçıvanda hərbi baza saxlamaq hüququ tanıyır.

Kəsəsi, erməni-rus tandemi, xüsusilə də işğalçı tərəf Qarabağda, Azərbaycanda türk hərbçilərinin bütün hərbi, strateji strukturlarında təmsil olunduğuna əmin olmalı, bunu hər addımda hiss etməli, duymalıdır. Azərbaycan-Türkiyə geniş hərbi ittifaqı təkcə Ermənistan üçün yox, Rusiya üçün də regionda çəkindirici amil olaraq önəm kəsb edə bilər və etməlidir.

*****

Başqa bir maraqlı məqam odur ki, budəfəki birgə təlimlər Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın Rusiya (Soçi) səfəri günlərinə təsadüf edəcək. Səfər mayın 3-ə nəzərdə tutulub. İki hadisənin üst-üstə düşməsinin nə dərəcədə təsadüfi olduğunu demək çətindir, ancaq qeyd etməyə dəyər ki, kifayət qədər maraqlı təsadüfdür.

Bu, hər halda Kremlə də incə bir çatdırışdır ki, Rusiya işğalçı Ermənistanın arxasında durmaqda davam etdikcə, işğalçıya sponsorluq etdikcə, Türkiyə də Azərbaycanın yanından heç yerə getməyəcək və problemin həllində tezliklə ciddi irəliləyiş olmazsa, savaş variantı yeganə həll (çıxış) yolu olaraq qalacaq...

❑ **Analitik xidmət**

## Rusiyada neofaşizmin növbəti kükrəyişi



**Xalid KAZIMLI**

**Moskvada olan, yolu aeroportlardan keçən dost-tanışlar deyirlər ki, Sankt-Peterburq şəhərinin metropolitetində törədiən və 16 insanın ölümünə səbəb olan terror aktından sonra Rusiyada "qara millətlər"ə qarşı münasibət pisliyə doğru kəskin dəyişib.**

"Qara millət" dedikdə heç də Afrika qaradərililəri nəzərdə tutulmur. Bildiyimiz kimi, hələ sovet dönəmində belə Rusiyada qeyri-slavyan xalqların hamısını təhqiramiz şəkildə "qara" adlandırırdılar.

Bu təhqiramz ifadəni (bəzən qoşması da olurdu) gen-bol işlədən rus şovinistləri nəzərə almırdılar ki, bunlar o qədər də qara deyillər, sadəcə, slavyanlarla müqayisədə əsmərdirlər, italyanlarla, portuqallarla, ispanlarla, Fransanın cənubunda yaşayan fransızlarla eyni rəngdədirlər.

"Qara" qrafasına əsasən Qafqaz xalqlarını, orta asiyalıları aid edirdilər və bu təmayül SSRİ dağılandan sonra daha da şiddətləndi.

Bununla belə, Orta Asiya respublikalarından, Qafqazdan gedərək Rusiyanın intəhasız ərazisindəki şəhər və qəsəbələrdə əmək miqrantı olaraq çalışan, özünə gün-güzəran düzəldən milyonlarla qastarbayter onlarla bu cür "ikinci sort" insan kimi davranılmasına dözürdü və dözür.

Rus neofaşistlərinin - "dazbaş"ların zaman-zaman aktivləşməsi müntəzəm olaraq "qara millət"lərdə, o cümlədən azərbaycanlılarda narahatlıq yaradır. "Dazbaşlar" tez-tez "qara"ların çalışdığı bazarlara hücum edir, onları döyüb-incidir, xərac toplayır, bəzən isə təkləyib öldürürlər.

Bu işdə neofaşistlərə vaxtaşırı olaraq rus xüsusi təyinatları da kömək edir. Xüsusi təyinatlılar da vaxtaşırı bazarlara hücum edir, "qara"ların müxtəlif məhsullar dolu piştaxtalarını dağıdır, özlərini təcridxanalara doldurur, külli miqdarda xərac aldıqdan sonra çoxunu buraxır, bir hisəsini isə deportasiya edirlər.

Bu cür xoşagəlməz davranış üzündən Rusiyada özlərinə yaxşı iş qurmuş, güzəran düzəltmiş minlərlə azərbaycanlı bir ara hər şeyi buraxıb vətənə qayıtdılar və hazırda başlarını zor-bəla dolandırmaqdadırlar. Onların beyninə hakim kəsilmiş ölüm qorxusu çox qazanmaq, yaxşı aşamaq erhtirasını üstələyib. Ancaq ölüm qorxusunu vecinə almayıb qalanlar, bütün çətinlikləri gözə alanlar qat-qat çoxdur.

Rusiyada isə neofaşizm dalğası səngimək bilmir, vaxtaşırı kükrəyir.

Xüsusilə də hər dəfə Rusiyada törədilən hər hansı bir terror aktından, səs-küylü qətldən, kütləvi tələfatla nəticələnən insidentdən (məsələn, ağır yol qəzası, spirtli içkilərdən kütləvi zəhərlənmə və s.) sonra, bu işin altında "qara millət" izi çıxırsa, avtomatik olaraq ruslar aşırı dərəcədə həyəcanlanır və ölkə ərazisindəki bütün "qara"lar "milləti təhdid qrupu"na salınır.

Sankt-Petereburqda törədilən terror aktından sonra etnik kimlik etibarilə qırğız olan terrorçunun soydaşları ilə yanaşı, türkmənlər, taciklər, özbəklər, qazaxlar, eləcə də azərbaycanlılar, gürcülər, bir sözlə, dərisinin rəngi bir balaca qaraşın olan bütün millətlər şübhəli durumuna düşüblər.

Qətliamı beynəlxalq terror təşkilatının üzvü olan bir adam törədib, amma şübhə altında bir neçə milyon adam qalıb. Onların yeganə günahı dərilərinin rənginin Rusiyada yaşayan etnik çoxluğun rəngindən olmamasıdır. Başqa heç bir xüsusat nəzərə alınmır.

Mediadan bəlli olduğu kimi, belə hadisələr Avropa ölkələrində də baş verir. Məsələn, bir neçə dəfə İsveçdə hansısa bir gəlmənin yerli adamı bıçaqlayaraq, yaxud güllələyərək öldürdüyü barədə informasiya yayılıb, ancaq hüquq-mühafizə orqanları və mətbuat qatilin hansı millətə məxsus olduğunu nəinki qabartmamışdı, hətta əllərində olan bu detalı gizlətmişdilər ki, ictimai qəzəb qatilin məxsus olduğu millətin digər, günahsız fərdlərinin üzərinə fokuslaşmasın.

İki-üç il öncə məişət mübahisəsi zəminində bir gənc rusu öldürən həmyerlimizi təxminən bin Ladeni tuturmuş kimi əməliyyatla, hansı millətdən olduğunu dəfələrlə vurğulaya-vurğulaya həbs edib birbaşa daxili işlər nazirinin qəbuluna aparmaları hadisəsini yada salmaq kifayətdir ki, ruslarla avropalıların bənzər situasiyadakı davranışları arasında fərqi görmək mümkün olsun.

Bu baxımdan hazırda bir qatilə görə milyonlarla orta asiyalının şübhəli durumuna salınması absurd olduğu kimi, indiyədək heç bir terror aktı törətməyən azərbaycanlıların da orta asiyalılarla eyni tutulması ikiqat absurddur.

Nə yazıq ki, Rusiyanın hakim dairləri və bu olkənin etnik çoxluğu olan xalq şovinist düşüncədən xilas ola bilmir və bu gedişlə bu, mümkün olmayacaq. Daima yaxınlığında olan bütün millətləri müstəmləkə xalqı, kölə yerinə qoymuş və bunu artıq norma kimi qəbul etmiş xalqın zehniyyəti bundan ibarətdir.

YENİ MÜSAVAT
N 84 (6698) 22 aprel 2017

# Komik nazir



Zamin HACI
zaminhaci@mail.ru

**22 aprel dünyada Yer planeti günü kimi qeyd olunurmuş. Doğrusu mən heç bunu bilmirdim, kompüterim internetdən tapıb mexaniki olaraq xəbər verdi. Sözgəlişi, iqtidarın sayəsində uca millətimiz kimi mən də qloballaşmaq üzrəyəm - hər gün bilgisayarımın desktopuna müxtəlif ekzotik ölkələrdən xəbərlər gəlir. Örnək üçün, bir sosial şəbəkəyə girmək istəyirəm, görürəm başlıqlar ərəbcə gəlir. Sabahısı Google portalına axtarış verirəm, Niderland dilində xəbərlər çıxır. Bu niyə belə olur, izahatı çox tragikomikdir: hökumət bizim müxalif saytlara və xəbərlərə çıxışımızı əngəlləyir, özünə sərf etməyən informasiyaları oxumağa imkan vermir. Biz də məcburuq internet blokadasını yaran cürbəcür proqramlardan yararlanaq. O proqramların isə bir xüsusiyyəti var ki, sən Bakıdan internetdə girəndə elə göstərir guya hansısa xaricdən girmisən. "Azadlıqsevər" hakimiyyətin sayəsində beləcə dünyaya çıxırıq, dünya vətəndaşı olmaq üzrəyik.**

Bax, elə Yer günü haqda düşünəndə mənim ağlıma gəldi ki, bizim leksikonda "yer" sözü adətən mənfi, neqativ planda işlənir. "Yerlibazlıq", "yerliçilik", "yerli gəldi yersiz qaç", "qoy özümə yer eləyim, gör sənə neynirəm", "filankəsin pis sözü mənə yaman yer elədi" və sairə. Xalqın bir hissəsini isə hətta "yeraz" adıyla bölmüşük. Sanki başqa planetdən gəlmişik, Yerdəki şəraitə uyğunlaşmağa çətinlik çəkirik. Bəlkə dünya "Yer günü" qeyd edərkən biz də analoqumuzun olmadığını növbəti dəfə göstərək və "Yeraz günü" qeyd edək?

Təqvimdən söz düşmüşkən, 23 apreldə Fransada prezident seçkisi idi, bütün xəbərlərdə isə seçkinin birinci turundan danışılırdı. Hamı öncədən dəqiq bilirdi ki, ilk turda 50 faizdən çox səs yığan olmayacaq. Bu, biz azərbaycanlılar üçün yüngül yazsam, gülməli haldır. Necə yəni seçki ikinci tura qalsın? Nə təhər olur qabaqcadan bilməyəsən ki, müsyö Filankəs 80-90 faiz səs alıb dövlətin rəhbəri olmayacaqdır? Elə yaxşı olmuşdu Dərviş Məstəli şah bunların paytaxtını dağıdıb küllü-küf eləmişdi.

Yeri gəlib, Fransa haqda 90-cı illərdə satirik qəzetimiz "Çeşmə"də dərc olunan qəşəng bir lətifəni yazım. O vaxt AzTV-nin Səyyad Ağbabalı adlı müxbiri vardı, prezident Əliyev Parisə səfər edəndə bunu da aparmışdı. Səyyad müəllim hoteldə səhər yeməyinə düşür, qarşı masada əyləşən fransız buna deyir: "Bon appetit". Səyyad müəllim də elə bilir fransız özünü təqdim edir, cavab verir: "Səyyad Ağbabalı". Sabahısı gün hadisə eynilə təkrarlanır, üçüncü gün də belə olanda Səyyad müəllim səfirimizə şikayət edir ki, hoteldə bir fransız var, hər gün mənə özünü təqdim edir, dolayıb məni. Səfir gülür, deyir dolamır, "bon appetit" fransızca "nuş olsun" anlamını verir. Səyyad müəllim sevinir, fikirləşir nə yaxşı dava salmadan bunu öyrəndim. Sabah yenə fransızı görəndə cəld tərpənir, öncə özü "Bon appetit" deyir. Fransız gülümsəyərək cavab verir: "Səyyad Ağbabalı".

Həyatda belənçik tragikomik əhvalatlar çoxdur. Almaniyanın keçmiş maliyyə naziri Peer Ştaynbryuk isə rəsmən komik artist olmaq qərarı veribdir. Siyasətdən tamam çəkildiyini bəyan edib. İndi ölkə üzrə qastrola çıxır. Klublarda, salonlarda gülməli çıxışlar edib alman xalqını əyləndirəcəkdir. Gör insanlarda necə bəxt var, bizim maliyyə sektorunun zəhmətkeşləri isə neçə ildir xalqımızı ağlatmaqla məşğuldur. Devalvasiya, bağlanan banklar, dəhşətli kredit faizləri, intihar həddinə çatan borclular... Sözgəlişi, bu yaxında Almaniyada maliyyə araşdırması xalqın banklara yüksək etimadını göstərmişdi. Almanlar pullarını səhm almağa yox, sən demə yaxşı və stabil faiz verən əmanət banklarına etibar edirlər. Hətta 2008-ci ildə dünya iqtisadi böhranı zamanı alman bankları itkisiz vəziyyətdən çıxmışdılar. (Yeri gəlmişkən, məhz həmin dövrdə Ştaynbryuk maliyyə naziri idi).

Ancaq indi yapist təbliğat vasitələrinə baxsan Almaniyanın dağıldığını, Azərbaycanın isə çiçəkləndiyini görərsən. Orda nazirin komik, burda isə sifətindən zəhrimar yağan birisi olduğunu görərsən.

# "Dünyanın heç yerində bu sayaq məsələlərə yol verilmir"

## "Əflatun Amaşov: "Mən tənqidə dözümlüyəm, ancaq Brejnevin bir sözü var idi: "Tənqid şokolad deyil ki, hamının xoşuna gəlsin""; Mətbuat Şurasının sədri "Yeni Müsavat"a bədahətən şeir dedi



**Millət vəkili, Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov "Yeni Müsavat"ın "Bizim qonaq" rubrikasında iştirak edib. Aprelin 26-da Mətbuat Şurasının sədrinin 60 yaşı tamam olacaq, bir çoxları kimi, özü də inanmasa ...**
**Yubiley yaşından başlayan səmimi söhbətimizdə çox şeylərdən danışdıq.**
**Onunla müsahibənin 3-cü hissəsini təqdim edirik:**

*__(Əvvəli ötən saylarımızda)__*

Söhbət Əflatun bəyin nə zamansa şeirlər yazmasının üzərinə gəlir və bizim israrımız davam edir:

E.Paşasoy:

***- Buyurun, Əflatun bəy, zəhmət olmasa yuxumuzu çin eləyin...***

- (gülür) Mən elə bilirəm ki, hər bir azərbaycanlı nə vaxtsa şeir yazıb. Bəziləri hətta həbsxanaya düşəndə silsilə şeirlər yazıb.

Rauf bəyin replikası:

***- Məni deyir... (gülürük)***

- Bəziləri - bayaq adını çəkdik - şair iddiası ilə doğulub, baxıb ki, alınmır, yüngül publisistikaya keçib.

***Bu dəfə Sevinc Telmanqızı gülərək:***

***- Zamini deyir e... Yüngül deyərkən, bəy?***

***R.Arifoğlu:***

***- Yüngülü xüsusi deyir. Bizimki ağır publisistikadır (yenə gülüşmə).***

- Mən kiçik vaxtlarımda bir-iki şeir yazmışam. Mən elə bilirəm ki, şeir yazmaq dünyada ən asan peşədir. Məsələn, tutaq ki, biz burada oturmuşuq...

Və... ...Bədahətən şeir gəlir:

Elşad Paşasoy, arxada televizor...

***Efirdə "no comment..."***
***Qarşısında pəncərə,***
***3 xətt, 3 sütun...***

Beləcə yazırsan, deyirlər ki, 3 xətt, 3 sütun, burada şair nə demək istəyir? Burada nəsə var... Fransız yazıçısı var, El Larun, deyir ki, atlar gecəni gözləyir səbirsizliklə, ölmək üçün bir çuxur gözləyir ki, onların ölümünü heç kəs sezməsin...Bu da bir şeirdir.

***E.Məmmədli:***

***- Bayaqkı şeiriniz çox gözəl idi.***

Rauf bəy təkrar əzbərdən deyir Əflatun bəyin "qaynar-qaynar" yazdığı şeiri və "Amaşov bədahətən şeir yazdı" əlavəsini edir. (Gülüşmə)

***Ə.Amaşov:***

- Bir dəfə Londondaydım. Baxdım ki, Azərbaycan Yazıçılar Birliyi bir bəndlik şeir müsabiqəsi keçirir. Dedim bir bunları yoxlayım, amma öz adımdan yox. Bir bənd şeir yazdım, yolladım. Zamin Hacı ona koment yazmışdı.

Görən balaca quzular
Niyə belə gec qalxırlar?
Bilmirlərmi canavarlar
Onlar üçün darıxırlar?..
(Gülərək əlavə edir)
-Yazdım, nə bir xəbər gəldi.
Nə dedilər ki, aldıq, ya almadıq.

S.Telmanqızı:

***- Zamin yazmışdı ki, Mətbuat Şurasının sədri niyə canavarların quzuları yeməsini bu qədər israrla istəyir, məqsədi nədir? (gülüşmə)***

***Ə.Amaşov:***

- Şeir yazmağım təqribən 7-8-ci siniflərə qədər davam etdi. Mən yazdığım şeirlər də "Azərbaycan pioneri" qəzetində, "Azərbaycan" jurnalında dərc olunurdu.

***R.Arifoğlu:***

***- "Azərbaycan pioneri"ndə mənim də materiallarım dərc olunub, orta məktəbdə...***

***Ə.Amaşov:***

- Bir dəfə söhbət düşdü, dedim şeirlərim filan vaxt "Azərbaycan pioneri"ndə çap olunub. Deputat Hüseynbala Mirələmov dedi ki, o vaxt şeir şöbəsinin müdiri xəstə idi, redaktoru mən əvəz edirdim, o şeir elə mənim vaxtımda çap olunub...



"Müharibə yalnız səngərlərdə, döyüş bölgəsində getmir, eyni zamanda informasiya müharibəsi gedir"

Bayaqdan bəri telefonundakı israrlı zənglərə işarə edərək, "bəlkə də mənim seçicilərimdir" deyir və üzr istəyib telefonu açır, yerindən qalxıb kənarda telefonu cavablandırandan sonra söhbətimizi davam etdiririk.

***R.Arifoğlu:***

***- Nisbət necədir, gündə neçə faiz jurnalistlər zəng vurur, neçə faiz seçicilər və onlar nə istəyirlər?***

- Məsələn, bu gün biz tədbir keçirdik, siz də iştirak etdiniz, sonra iki komitənin birgə iştirakında iştirak və çıxış etdim, təkliflər verdim. Səhər iki jurnalist zəng edib fikir öyrənib, bir jurnalistlə də axşam görüş razılaşdırdıq. Həmçinin Türkiyədə keçiriləcək Qara Dəniz Əməkdaşlıq Təşkilatının tədbirini işıqlandırmaq üçün iki jurnalist xahiş ediblər, bu məsələni həll etmişəm. İranla bağlı bir məsələni də müzakirə etmişəm. Bundan əlavə, iki seçicim məişət məsələləri ilə bağlı zəng edib.

***- Jurnalistlər heç məişət məsələləri ilə bağlı müraciət edirlərmi?***

- Daha çox mənzil məsələləri ilə bağlı müraciətlər olur.

***- Kömək edə bilirsinizmi?***

- Hələlik müəyyən mərhələyə ehtiyac var, son bölgü meyarları müəyyənləşməyib. Ancaq buna baxmayaraq, hazırda Azərbaycan Mətbuat Şurasında evlə bağlı 200-ə yaxın müraciət var. Müxtəlif vaxtlarda toplanmış müraciətlərdir. Bunlar yalnız redaksiyalarda çalışan jurnalistlər deyil, müəyyən müddət çalışmış, indi təqaüddə olan, yaxud hansısa məqamlarda jurnalistika ilə təması olmuş insanlardır.

***- Mənzillərin sayı nə qədərdir?***

- 250-yə yaxındır. Çox güman ki, əvvəlki prinsiplərin oxşarı müəyyən olunacaq, o prinsiplər əsasında ehtiyacı olan jurnalistlər mənzillə təmin olunacaq.

***- İnşallah. Əflatun bəy, bir məsələni də işgüzar planda danışmaq istəyirik: cəbhə xəttində gedən savaşın işıqlandırılması problemi və jurnalistlərin o prosesdə iştirakı... Sizin Mətbuat Şurası olaraq Daxili İşlər Nazirliyi (DİN) ilə çox uğurlu bir layihənin oldu və neçə illərdir fəaliyyət göstərir. Yəni jurnalistlər qaynar xəbərlərlə işləyəndə, mitinqlərdə, küçə yürüşlərində onların xüsusi geyimləri, toxunulmazlığı olur, polis onlara mane olmur. İndi də Azərbaycanın əsas qaynar nöqtəsi düşmənlə təmas xəttidir. Aprel döyüşləri də onu göstərdi ki, bu döyüşlər təkrar oluna bilər, jurnalistlər də qaynar xəbərlə işləmək istəyirlər. Müdafiə Nazirliyi ilə bənzər əməkdaşlıq layihəsi mümkündürmü? Yaxud indiyə qədər əməkdaşlıq niyə olmayıb?***



-DİN-lə birgə layihəmiz davam edir. Son zamanlar biz yenə təqribən 250-yə yaxın gödəkcə tikdirdik və jurnalistlərə payladıq. İndi də Bakıda mitinqlər zamanı Mətbuat Şurasının "Qaynar xətt"i fəaliyyət göstərir, Monitorinq Qrupu hadisə yerində olur və çalışırıq ki, jurnalistlərin informasiya əldə etməsinə heç bir maneə olmasın. Hansısa problem yaranırsa, dərhal müvafiq qurumlarla əlaqə saxanılır və problemlər aradan qaldırılır. Apardığımız monitorinqin nəticələri onu göstərir ki, son illərdə jurnalistlər belə bir maneə ilə rastlaşmır. O ki qaldı döyüş bölgəsinə, biz Müdafiə Nazirliyi ilə bu məsələləri yaxından müzakirə edirik, birgə çalışırıq. Dəfələrlə görüşlər keçirmişik və jurnalistlərin döyüş bölgəsinə səfərlərini təşkil etmişik. Bəzi məqamlarda müəyyən problemlərlə də qarşılaşmışıq. Çünki müharibə gedir, bəzi məqamlarda media vasitəsilə ictimaiyyətə qeyri-dəqiq informasiyalar ötürülür, hansısa vətəndaş hansısa döyüş texnikasının yerdəyişməsini açıqlayır. Hərbi birləşmələrin yerləşməsi, yerdəyişməsi, canlı qüvvənin, hərbi texnikanın sayı, tərkibi ilə bağlı informasiyaların ictimailəşməsi qanunla qadağan olunur, bunlar dövlət sirridir. Müharibə yalnız səngərlərdə, döyüş bölgəsində getmir, eyni zamanda informasiya müharibəsi gedir...

***- Peşəkar jurnalistlərin hazırlığını həyata keçirmək, kurs keçmiş mətbuat nümayəndələrinin cəbhə xəttindən reportajlar verməsi üçün alternativ layihələr varmı?***

- Əlisafa Mehdiyevin rəhbərlik etdiyi "Dinc Dünya" Araşdırmalar Mərkəzi ötən il iki dəfə hərbi mövzuda yazan jurnalistlərlə əlaqədar təlimlər keçirib. Biz bu təlimlərin sayını çoxaldacağıq və Müdafiə Nazirliyi ilə birgə layihəmiz nəticəsində müharibə mövzusunda yazan jurnalistlərin nazirlikdə akkreditə olunmasını sürətləndirəcəyik. Eyni zamanda ali məktəb tələbələrinə müəyyən bilgilərin verilməsini də nəzərdə tuturuq. Əlbəttə, Müdafiə Nazirliyi də baş verən hadisələrlə bağlı informasiyaları tamamilə qapamır. Bəzi məqamlarda baş verən hadisə zamanı şəhidin olması, bu xəbərin ailəsinə çatmamasından əvvəl onun mətbuata sızması, ailənin bu xəbəri mediadan əldə etməsi müəyyən xoşagəlməz nüanslar yaradır. Əlbəttə, bu sahədə müəyyən boşluqlar var və dövrün tələblərinə cavab verə biləcək qədər həllə nail olmalıyıq.

***E.Paşasoy:***

***- Əflatun bəy, deputatların etik davranış kodeksi hazırlanır. Reallıq budur ki, vaxtaşırı ayrı-ayrı həmkarlarınızın açıqlamaları, ehtiyatsız ifadələri günlərlə müzakirə mövzusuna çevrilir. Siz təmkinli deputatlardansınız, amma hər halda deputat necə olmalı, necə danışmalıdır, suallarına cavabınız necədir?***

- Bu, sırf insanın tərbiyə məsələsidir. Hansı ailədən çıxıb, hansı mühitdə formalaşıb, onun dünya baxışı necədir? İnsanlar rəngarəngdir, hər kəsdən eyni və yüksək davranışı tələb etmək də yersiz olardı. Ancaq hər insan çalışmalıdır ki, özünün, ailəsinin, işlədiyi qurumun nüfuzunu qorusun, daşıdığı missiyanı unutmasın. Bütün dünyada bu məsələlərə çox böyük önəm verilir. ABŞ, Böyük Britaniya, Almaniyada, Avropanın müxtəlif ölkələrində deputatların qarşısında davranış qaydaları ilə əlaqədar kifayət qədər sərt tələblər var. Hətta Böyük Britaniyada deputat iclası pozursa və gəlir deklorasiyasını düzgün təqdim etməyibsə, o, cinayət məsuliyyətinə cəlb oluna bilər. Yaxud Almaniyada, Polşada əgər deputat parlamentdəki çıxışında kimisə təhqir edirsə, kiminsə şərəf və ləyaqətini alçaldırsa, onunla bağlı cinayət məsuliyyəti ola bilər. Beynəlxalq təcrübədə parlamentin nüfuzunun qorunması, artırılması deputatların qarşısında duran əsas vəzifələrdəndir.

***-Siz özünüz də "feysbuk" istifadəçisi olaraq həmkarınızın dediklərini necə qarşıladınız?***

-Hər kəs özünün bütün hərəkətlərinə, dediklərinə cavabdehdir. Bəzi hallarda bu sayaq halların baş verməsində biz jurnalistlər də günahkarıq. Bəzən kiçik bir məqam olanda onu gündəmə gətirib geniş müzakirə edirik, baş verən olayın həcmini artırırıq, geniş diskussiyalar açırıq. Mən bunun da əleyhinəyəm.

***- Yəni jurnalistikada özünüsenzura olmalıdır? Belə çıxır ki, hansısa deputat ehtiyatsız ifadə işlədibsə, onu yazmamaq doğrudur? Onu da deyim ki, bunu peşə prinsiplərinə xəyanət sayanlar da var...***



- Özünüsenzura həmişə, hər bir insanda olmalıdır, jurnalist olmasa da. Mənim fikrim belədir ki, əgər kimsə millət vəkilidirsə, onun yükü ağırdır. O, evdən çıxanda geyiminə, davranışlarına, insanlarla münasibətinə fikir verməlidir. Əgər o, avtomobil idarə edirsə, o zaman da tələblərə əməl etməlidir. Bütün dünyada belədir.

***- Bəs, siz özünüz qırmızı işıqdan bilərəkdən keçmisiniz?***

- Arada müəyyən qanun pozuntuları olur. Amma çalışıram ki, o sayaq pozuntulardan uzaq olum.

***R.Arifoğlu:***

***- Əflatun bəy, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanuna edilən düzəlişləri mediaya təhlükə hesab edənlər də var. Bəzi məlumatlara görə, həmin düzəlişlər əsasında bir neçə saytın, qəzetin yayımı dayandırılıb. Bu düzəlişlər gələcəkdə Azərbaycanda internet məkanından istifadə üçün məhdudiyyətlər yaradır, yoxsa yaratmır?***

-Bəzi şəxslər yalançı ünvanlardan istifadə edib digərləri ilə bağlı yanlış informasiyalar verirlər, şəxsi həyata müdaxilələr edirlər. Dünyanın heç yerində bu sayaq məsələlərə yol verilmir, qarşısı alınır. Əslində KİV haqqında Qanunda olan bir sıra müddəalar internet mediasına da şamil olunur. Orada müəyyən detallar var. Əgər doğrudan da dövlətçiliklə bağlı qanunvericilikdə nəzərdə tutulmuş məqamlar pozulmuşsa, həmin informasiyanın yayılması məqsədəmüvafiq sayılır, əlaqədar quruma səlahiyyət verilir ki, bu sahədə addımlar atsın. Həmin məlumatın yayılması prosesi Azərbaycanda da həyata keçirilə bilər, dünyanın başqa ölkələrindən də. İnternet artıq yeni jurnalistikadır, bütün dünyada ictimai fikir əsasən internet üzərindən formalaşır. Əgər biz dərin təhlillər aparsaq, inkişaf etmiş ölkələrin özündə də, məsələn, ABŞ, Böyük Britaniya, Almaniya təcrübəsində bu məsələ ilə bağlı hazırda ciddi araşdırmalar gedir, orada da müəyyən məhdidiyyətlər var.

***- Yəni analoji məhdudiyyətlərdir, yoxsa onlarda bizdən fərqlidir?***

***(Davamı növbəti sayımızda)***

❑ Elşad PAŞASOY
Məhəmməd TÜRKMƏN



"Özünüsenzura həmişə, hər bir insanda olmalıdır, o, jurnalist olmasa da"



YENİ MÜSAVAT
N 85 (6699) 24 aprel 2017



# “MTN işi”: dələduzlar Çovdarovdan intiqam alır

## Vaxtilə qanunsuzluq edən sabiq MTN-çilər indi yalançı şahidlərlə üzləşməli olublar

**Sabunçu Rayon Məhkəməsinin binasında ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin həbsdə olan sabiq rəisi, general-mayor Akif Çovdarov və onunla birlikdə həbs edilən 3 MTN əməkdaşının məhkəmə prosesi davam edir. Məhkəmədə üzə çıxan faktlar, məlumatlar onu deməyə əsas verir ki, mühakimə olunanlar xeyli qanunsuzluqlara yol veriblər. Bu gün isə onların özləri belə aqibətlə üzləşiblər.**

Məsələn, A.Çovdarovun əleyhinə ifadə verən şahid Fuad Nəcəf bildirib ki, 2015-ci ilin sentyabrında onu tutaraq MTN-ə aparsalar da, irəli sürülən ittiham sübuta yetirilə bilməyib və cinayət işi Nəsimi Rayon Polis İdarəsində araşdırıldıqdan sonra baxılmaq üçün Nəsimi Rayon Məhkəməsinə verilib. Fuad Nəcəf istintaqın davam etdiyi 7 ay ərzində təcridxanada saxlansa da, günahının sübuta yetirilməsinin mümkün olmaması səbəbindən bəraət qazandığını deyib.

Məsələ ilə bağlı ifadə verən təqsirləndirilən Akif Çovdarov çox maraqlı bir detalı açıqlayıb.

“Bu adam respublikaya narkotik gətirən adamdır. Bəraəti isə ona görə veriblər ki, gəlib burada mənim üzümə dursun” - deyə, Çovdarov bildirib.

İş üzrə zərərçəkmiş kimi tanınan Qədim Ədilovu Keşlə Yük Stansiyasında bu gün də axtaranlar çoxdur. Hamıdan pul alıb, hamıya taxta-şalban gətirməyi vəd edib. 20-yə yaxın şəxsin əlində Qədim Ədilovun onlara borclu olması haqda sənəd-sübut var. Amma nə faydası? Məsələn, Q.Ədilov deyir ki, 7 sentyabr 2015-ci il tarixdə 18-19 radələrində «Nərimanov» metrosu yaxınlığında Səlim Məmmədovla görüşüb, onların yanında Cəbrayıl adlı MTN əməkdaşı olub. Məlum olub ki, Cəbrayıl adlı MTN əməkdaşı 6-7 sentyabr tarixlərində rəhbərlikdən icazə alaraq Şamaxı rayonunda olub. DTX-dan isə bildiriblər ki, Q.Ədilovun göstərdiyi saatlarda Səlim Məmmədov iş yerində olub, Qədim Ədilovun pulu verdiyini idda etdiyi vaxtdan azı 2 saat sonra MTN-dən çıxdığını bildirib. Daha sonra digər vəkillərin suallarını cavablandıran Qədim Ədilovun ifadəsindən məlum olub ki, zərərçəkmiş 20 və 24 aprel tarixlərində MTN-də olmuş və İlham Nəsibov və Eldar adlı şəxslərdən MTN-ə yazılı şikayət etmişdir, lakin istintaqda bu barədə bildirməyib. Zərərçəkmiş vəkillərin nə səbəbdən bu barədə istintaqa bildirməməsi barədə sualına “soruşmadılar, demədim” cavabını verməklə kifayətlənib. Onuda qeyd edək ki, cinayət işinin materiallarında olan sənədlərdən məlum olur ki, Qədim Ədilov 23 iyun tarixində MTN-in əsas binasında saat 13:31-dən 13:59-dək (cəmi 28 dəqiqə) olub və dediyi hadisələr, yəni əsas binaya daxil olması, 3-cü mərtəbəyə qalxması, Akif Çovdarovun əvvəlcə yumruqla yorulanadək Qədim Ədilovu döyməsi, daha sonra əllərini plastik iplə bağlatdıraraq dubinka ilə başına və boynuna vurması, huşunu itirməsi, Səlim Məmmədovun üzünə su vurmaqla onu ayıltması və əsas binadan çölə çıxması həmin 28 dəqiqə ərzində baş verib!

Qeyd edək ki, A.Çovdarov 2015-ci il noyabrın 14-də həbs olunub. A.Çovdarova qarşı Cinayət Məcəlləsinin 308.2 (Vəzifə səlahiyyətlərindən sui-istifadə, bu Məcəllənin 308.1-ci maddəsi ilə nəzərdə tutulmuş əməllər ağır nəticələrə səbəb olduqda və ya seçkinin (referendumun) nəticələrinə təsir məqsədilə törədildikdə), 311.3.1 (Rüşvət alma (passiv rüşvətxorluq), qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən), 311.3.2 (Rüşvət alma (passiv rüşvətxorluq) təkrar törədildikdə), 311.3.3 (Rüşvət alma (passiv rüşvətxorluq) külli miqdarda törədildikdə), 311.3.4 (Rüşvət alma (passiv rüşvətxorluq) hədə-qorxu tətbiq olunmaqla törədildikdə) və 145.3-cü (Qanunsuz azadlıqdan məhrum etmə, iki və ya daha çox şəxsə qarşı törədildikdə; təqsirkar şəxs üçün aşkar surətdə hamilə vəziyyətində olan qadına qarşı törədildikdə; yetkinlik yaşına çatmayan şəxs barəsində törədildikdə; bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə; zərərçəkmiş şəxsin həyatı və ya sağlamlığı üçün təhlükəli olan zor tətbiq etməklə törədildikdə; silahdan, yaxud silah kimi istifadə edilən əşyalardan istifadə etməklə törədildikdə, bu əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda) maddələri ilə ittiham irəli sürülüb.

❑ E.HÜSEYNOV

# Yanan binanın açılmayan sirləri

## Təkrar məhkəməyə qaytarılan cinayət işinin hökmü də yandırılmalıdır - şahid ifadələrini kim və niyə təhrif edib?



**Ötən həftə Bakı Apelyasiya Məhkəməsində Binəqədi rayonunda yaşayış binasında baş verən yanğınla bağlı təqsirləndirilən şəxslərin apelyasiya şikayəti üzrə məhkəmə keçirilib və işin yenidən Bakı Ağır Cinayətlər Məhkəməsinə qaytarılması haqda qərar qəbul olunub. Həmin qərara görə, Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Əfqan Hacıyev hökmdə buraxdığı səhvləri düzəltməlidir. Həmin səhvlər isə protokolların imzalanmamasıdır.**

İlk baxışdan texniki xəta kimi görünən bu səhvlər əslində böyük bir qanunsuzluqdan xəbər verir, hökmün mötəbərliyini şübhə altına alır. Belə ki, əslində məsələ ondadır ki, hökmdə şahidlərin məhkəmədə verdikləri ifadələr təhrif olunmuş şəkildə yer alıb. Hakim hökmdə şahidlərin dediklərini ittihamı təsdiq edən formada yazıb. Faktiki isə şahidlər ittihamı təkzib edən ifadələr veriblər.

Belə təhrif olunmuş ifadələr 1-2 şahidlə məhdudlaşmır. 30-a yaxın şahidin ifadəsi hökmdə təhrif olunmuş şəkildə yer alıb. Həmin şahidlərin ifadə verdikləri günlərdə tərtib olunan məhkəmənin gedişatı haqda protokolları isə hakim imzalamayıb. Beləliklə, imzalanmayan protokollara əsaslanan hökm ortaya çıxıb.

Hökm mötəbər sübutlara əsaslanmalı olduğu halda, iş üzrə çıxarılan hökm mötəbər olmayan sübutlara - əgər sübut demək mümkündürsə - əsaslanıb.

Əslində qanuna qalsa, belə hökm çıxarmış hakimin barəsində xüsusi qərardad çıxarılmalı idi. Amma çıxarılmayıb. Bu o deməkdir ki, iş Bakı Apelyasiya Məhkəməsindən geri qaytarılsa da, faktiki heç nə dəyişməyəcək.. Hakim imzalamadığı protokolları imzalayacaq və hökmü qüvvədə saxlayacaq. Şahidlərin ifadələri isə elə təhrif edilmiş şəkildə qalacaq.

Cinayət işinin içində ört-basdır edilən xeyli məqamlar var. Bu haqda əvvəllər də yazmışıq, bir daha yazdıqlarımıza qayıdaq. Məhkəmədə zərərçəkənlərin söylədiklərindən, mübhəm yanğından əvvəl və sonra ölkə boyu törədilən qəsdən yandırma faktlarının ortada olmasından belə aydın olur ki, əvvəl ittihamda yazıldığı, hökmdə təkrarlandığı kimi Binəqədidəki 16 mərtəbəli bina siqaret kötüyündən alışmayıb. Binanın 27 saniyə içində kibrit qutusu kimi od almasına çox ciddi şəkildə hansısa formada köməklik edilib.

Məsələn, bu olaydan 3 gün əvvəl, 2015-ci il mayın 16-da Nərimanov rayonu, Koveroçkin küçəsindəki hündürmərtəbəli, yerləşməsinə, quruluşuna görə Binəqədidəki binanın “əkiz” tayını xatırladan binada yanğın törətmək istəyən şəxslər kəndiri neftə bataraq binanın üstündən üzü aşağı, poliuretan üzlüyün üzərindən buraxmışdılar. Bu faktdır! Elə bir faktdır ki, bu faktı araşdırmadan, qiymət vermədən Binəqədidə binanın necə alışması sualına tam, hərtərəfli cavab axtarmaq qaranlıq otaqda qara pişik axtarmağa bərabər işdir.

Amma nə baş verib? Nərimanovda binanın qəsdən yandırılması işini Nərimanov Rayon Polis İdarəsinin istintaq şöbəsində “yandırıblar”. Sadəcə, bu günə qədər araşdırıb son nəticəni ortaya qoymayıblar.

Binəqədidəki binanın poliuretanın keyfiyyətsizliyi üzündən alışıb yandığı və böyük faciəyə səbəb olduğu ittihamda yazılıb və hökmdə də təkrar olunub. Əgər poliuretan keyfiyyətsiz idisə, niyə Nərimanovdakı binada alışmayıb? Axı həmin poliuretanı Binəqədidəki, Nərimanovdakı binalara eyni şirkət vurub. Eyni şirkət Türkiyədə sifariş edərək Azərbaycana gətirib, burada qəlibləyib və binalara vurub. İttiham, ardınca hökm binanın hansı səbəbdən yanması sualının cavabını ortaya qoymaq əvəzinə daha çox yanan binanın həndəvərində ayaq döyməklə məşğul olub.

Üstəlik, 2015-ci il aprelin 10-da Xətai rayonu ərazisində yaşayış binasında “THN” şirkətinin “poliuretan”la üzlədiyi binadakı yanğından sonra Fövqəladə Hallar Nazirliyində geniş tərkibli iclas keçirilib. İclasa FHN-in Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin rəisi Cəbrayıl Xanlarov başçılıq edib. İclasda yeganə müzakirə olunan mövzu Azərbaycanda binaların üzlənməsində istifadə olunan poliuretanın tezalışan olub-olmaması olub. Araşdırmalar zamanı məlum olub ki, digər tikinti şirkətlərinin, “THN”in istifadə etdiyi poliuretan daha aşağı keyfiyyətli və odadavamlılığı daha azdır. Respublikaya keyfiyyətli “poliuretan” idxal edən rəsmiləri mötəbər olmayan hökmlə həbsə göndərilən “Global-Stone”dir. Hətta həmin iclasda “THN” şirkəti rəsmilərinə xüsusi olaraq tapşırılıb ki, binaların üzlənməsində istifadə etdiyi poliuretanı məhz “Global-Stone”də qəlibləsin.

Belə bir halda poliuretanın tezalışan olmasının ittihamın əsasını təşkil etməsi nə dərəcədə doğrudur? Hökmdə həmin tezislərin təkrar olunması əsaslıdırmı?

Bina kibrit qutusu kimi yanan ilk dəqiqələrdən belə məlumatlar vardı ki, Binəqədidəki binada “poliuretan” üzlüyün alışması üçün binanın damından üzü aşağı, “poliuretan" üzlüyün arxası ilə tezalışan maye axıdıblar.

Bu məlumatlar tam şəkildə arşdırılıb təsdiq və ya təkzib olunmadı.

Bir daha yada salaq ki, belə bir addımın mümkünlüyünü təsdiqləyən digər bir fakt da ortalıqdadır. Binəqədidə bina yanandan 5 gün sonra - 2015-ci il mayın 24-də Gəncədə, Dədə Qorqud küçəsində hündürmərtəbəli yaşayış binalarından birinin üzərində “drujinnik”lər 2 şübhəli şəxsi saxlayıblar. Gecəyarısı əllərində dizel yanacağı ilə dolu kanistrlərdə damda gəzənlərdən biri Samux rayon sakini, digəri isə Rusiya Federasiyasının vətəndaşı olub. “Drujinnik”lər tutduqları hər iki şəxsi polisə təhvil veriblər. Hətta polisdən Gəncə İcra Hakimiyyətinə gecəyarısı damları əllərində yandırıcı maddə dolu kanistrlərlə gəzən şəxslər haqda məlumat verilib. Bu haqda MTN-in yerli şöbəsinə məlumat daxil olandan sonra hər iki şəxsi polisdən təhvil alıblar. MTN-ə aparılan hər iki şəxs sonradan istintaqa cəlb olunmayıb, barələrində cinayət işi başlanmayıb.

Bəs həmin 2 şəxs gecəyarısı, damda, əllərində tezalışan maye dolu kanistirlərlə niyə gəziblər? Kim olub həmin şəxslər? Niyə ortalıqdan yoxa çıxarılıblar?

Təəssüf ki, məhkəmə də istintaqda olduğu kimi baş vermiş olaydan sonra fəaliyyətini araşdırmalı olduğu şəxsləri həbs etməklə işi bitmiş hesab etdi. Nəticədə bu gün yanğın zamanı dünyasını dəyişmiş 15 nəfərin, xəsarət almış 56 şəxsin sırasına 8 nəfər də azadlıqdan məhrum edilməklə “yandırılır”.

❑ E.HÜSEYNOV

YENİ MÜSAVAT
N 85 (6699) 24 aprel 2017

# Sürücüləri ölümə aparan Hövsan yolu

## Əməkdaşımız hər an bədbəxt hadisələrin baş verə biləcəyi ərazidə olub; **Anar Nəcəfli:** "Yenidənqurma işləri bu il yekunlaşacaq..."

**Suraxanı rayonu, Hövsan qəsəbəsinə gedən əsas magistral yol sürücülərin kabusuna çevrilib. Magistral yolda aparılan təmir-tikinti işləri sürücülər üçün əngəl yaradıb. Belə ki, yolun təmir aparılan hissəsini hərəkət hissəsindən ayırmaq məqsədi ilə bir neçə yerdə beton sədlər qoyulub. Avtomobillər yüksək sürətlə gələrək həmin hissədə sürəti qəfil azaltmalı olurlar.**





Yol kənarında sürət nişanları qoyulsa da, çox az sürücü bu qaydalara əməl edir. Təmir aparılan yerlərdə yolun bir hissi tutulduğundan, yol daralır və avtomobillər qarşı yola keçməli olurlar. Yolun təmir aparılan hissələri arasında məsafə də olduqca yaxındır. Belə ki, sürücülər bu təhlükəni bir neçə dəfə yaşamalı olurlar.

Təhlükəni artıran daha bir məqam isə yolda işıqlandırma sisteminin olmamasıdır. Axşam saatlarında zülmətə bürünən yolu yalnız avtomobillərin işıqları qismən aydınladır. Bu isə sürücülər üçün ciddi problem yaradır. Musavat.com-un müxbiri bu ərazidə olub və Hövsana gedən magistral yoldakı vəziyyətlə bağlı problemləri işıqlandırıb.

İlk növbədə onu qeyd edək ki, 24.5 kilometrlik Hövsan-Zığ yolunda aparılan təmir işləri təqdirəlayiqdir. Çünki illərdir asfalt örtüyü bərbad durumda olan yolda sürücülər və sərnişinlər əziyyət çəkirdi. "Azəryolservis" ASC tərəfindən mərhələli şəkildə yolun genişləndirilməsi və piyada zolaqlarının salınması işləri aparılır. Qurumun təmir apardığı yerlərdə sürücülərə xəbərdarlıq lövhələri yerləşdirilib.

Hövsan və Əhmədli qəsəbələri arasında xidmət göstərən taksi sürücüsü ilə həmsöhbət olduq. Adının çəkilməsini istəməyən sürücü vəziyyəti belə izah etdi: "İki ilə yaxındır ki, təmir işlərinə başlanılıb, o vaxtdan yollar bu vəziyyətdədir. Hər tərəfdə qazıntı, təmir işləri aparılır. Biz təmir işlərinin aparılması ilə razıyıq. Lakin işlər uzanır. Ən böyük problem magistral yolun zülmət qaranlıq olmasıdır. Kilometrlərlə uzunluqda olan yolun işıqlandırma sistemi yoxdur. Axşamlar bu yol daha riskli və təhlükəlidir. Bir çox hallarda qarşıdan gələn avtomobillərin məsafəsini hesablamaqda çətinlik çəkirik. Çox zaman sürücülər sürət həddini aşır, 80-100 km/saat sürətlə sürürlər. Yolun eni azdır. Bu səbəbdən də burada tez-tez qəzaların baş verir. Qarşıda maneə olduğunu yalnız avtomobillərin işıqlarında görmək mümkündür. Təmir işləri aparmazdan öncə işıqlandırma dirəkləri quraşdırmalıdırlar ki, yolda hərəkətin təhlükəsizliyi təmin olunsun. Yalnız bir-iki yerdə nəqliyyatın hərəkətini izləmək üçün quraşdırılmış kamera dirəklərinin işıqları yolu az da olsa aydınladır. Ətrafda da yaşayış məntəqələri var. Yolun kənarı ilə daim piyadalar hərəkət edirlər. Hər an bədbəxt hadisələr baş verə bilər".

Hövsan yolundakı durumla bağlı mövqe öyrənmək üçün "Azəravtoyol" MMC-nin mətbuat xidmətinin rəhbəri Anar Nəcəfli ilə əlaqə saxladıq. Musavat.com-a danışan A.Nəcəfli Hövsan yolunda aparılan yenidənqurma işlərinin bu il yekunlaşacağını bildirdi: "Hövsan yolunda aparılan işlər daxili investisiya hesabına maliyyələşən layihədir. Vəsaitə uyğun olaraq işlər həyata keçirilir, asfalt örtüyü yenilənir, yol genişləndirilir. Bu il ərazində də təmir işlərinin yekunlaşdırılması planlaşdırılır. Zığ-Hövsan yolunun uzunluğu 24 kilometrdir. İlkin mərhələdə Zığdan Hövsana qədər olan yolun təmiri nəzərdə tutulur. Həmin məsafə təqribən 7-8 kilometrdir. Onun bir kilometri, "BakuBus" tərəfdən olan giriş hissəsi yenidən quruldu və istifadəyə verildi. İkinci mərhələdə isə Hövsandan Türkana qədər olan yolların təmiri nəzərdə tutulub. Hazırda da işçi heyəti və texnikalar ərazidə iş aparır".

Yolun işıqlandırma sistemi ilə təmin edilməsi gəldikdə isə, Anar Nəcəfli layihədə bunların da nəzərdə tutulduğunu qeyd etdi: "Layihə çərçivəsində işıqlandırma dirəklərinin quraşdırılması da nəzərdə tutulub. Layihə tam icra olunandan sonra orada işıqlandırma işlərinə başlanacaq. Bundan əlavə, həmin ərazidə üç yerüstü piyada keçidinin tikilməsi nəzərdə tutulub. Hər şey mərhələli şəkildə aparılır. Bu işlərin hamısı həyata keçiriləcək".

❑ **Məğrur MƏRD**
**Fotolar müəllifindir**

# Şirvanda dəhşət: hamilə arvadını vəhşicəsinə döydü, uşaq öldü




**APA-nın Mil-Muğan bürosunun məlumatına görə, Şirvan sakini, 1988-ci il təvəllüdlü Mədətov Elşad Nazim oğlu 7 aylıq hamilə olan həyat yoldaşı, 1996-cı il təvəllüdlü Ülviyyə Kərimovanı döyərək ona ağır xəsarətlər yetirib.**

Ü. Kərimova Şirvan doğum evinə çatdırılıb. Vaxtından qabaq və xəsarətlərlə doğulan uşaq 10 dəqiqə sonra ölüb. Uşağın meyiti Şirvan Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya mərkəzinə müayinə olunmaq üçün təhvil verilib.

Ü.Kərimovanın yaxın qohumlarının bildirdiyinə görə, o, əri tərəfindən mütəmadi olaraq işgəncələrə məruz qalıb. Hazırda Elşad Mədətov baş verənlər barədə polisə ifadə verir. Onun polis tərəfindən saxlanılacağı gözlənilir.

Faktla bağlı hüquq-mühafizə orqanları tərəfindən araşdırma aparılır.



# Lift İdarəsindən mövqe: "2012-2014-cü illərdə 1270 ədəd lift yenisi ilə əvəz edilib"

**Qarşı tərəf**

**Mediada son günlər "Lifttəmir" İstehsalat Birliyinin rəhbəri və qurumun fəaliyyəti ilə bağlı məqalələr dərc edilir. "Lifttəmir" İstehsalat Birliyi qarşı tərəf olaraq Bakı Şəhər Mənzil-Kommunal Təsərrüfatı Təşkilatlarının xidmət dairəsində olan çoxmərtəbəli binalarda liftlər barədə redaksiyamıza məlumat yollayıb. Onların cavab haqqını tanıyaraq məlumatı dərc edirik.**

Xəbərdə bildirilir: "Bakı Şəhər İcra Hakimiyyətinin balansında və xidmət dairəsində olan dövlət mənzil fonduna aid yaşayış binalarında quraşdırılmış liftlərin texniki istismarı bu binaların balans sahibi olan mənzil-kommunal təsərrüfatı təşkilatları, onların texniki xidməti və təmiri isə bu sahədə ixtisaslaşdırılmış "Lifttəmir" İstehsalat Birliyi tərəfindən həyata keçirilir. Bakı şəhərində vətəndaşların mənzil şəraitinin yaxşılaşdırılması, mənzil-kommunal xidmətlərinə olan tələbatının günün tələbləri səviyyəsinə gətirilməsi üçün 1967-ci ildə Bakı şəhərində mövcud olan çoxmərtəbəli binalarda quraşdırılmış sərnişin liftlərinin ixtisaslaşdırılmış texniki xidmətinin, cari və əsaslı təmirinin kompleks təşkili məqsədi ilə Bakı şəhərində təsərrüfat hesablı lift-təmir sahəsi yaradılıb. Bu zaman şəhər lift təsərrüfatında cəmi 120 ədəd lift istismar edilirdi.

1970-ci ildən başlayaraq Bakıda və eləcədə respublikanın digər şəhərlərində (Naxçıvan, Gəncə, Sumqayıt və s.) liftlə təchiz edilmiş çoxmərtəbəli yaşayış binalarının inşa edilməsinin geniş vüsət alması lift parkının artmasına səbəb olub. 1970-ci ildə yaşayış binalarında quraşdırılmış liftlərin sayı 156 ədəd təşkil etdiyi halda, 1979-cu ildə bu say 9 dəfə artaraq 1412-yə çatıb.

Bakı şəhərində mənzil tikintisinin geniş vüsət aldığı bir şəraitdə liftlə təchiz olunmuş çox mərtəbəli yaşayış binalarının sayının durmadan artımı və orada yaşayan sakinlərin mənzil-kommunal xidmətlərinə olan tələbatı, 1994-cü ildə Bakı Şəhər İcra Hakimiyyətinin mənzil təsərrüfatı təşkilatlarının balansında və xidmət dairəsində olan yaşayış binalarında quraşdırılmış liftlərin ümumi sayının 4000 ədədi keçməsi ilə əlaqədar, onların texniki xidmətinin və təmirinin təşkili üçün "Lifttəmir" İstehsalat Birliyi yaradılıb.

2001-ci ildə Bakı şəhər İcra Hakimiyyətinin mənzil təsərrüfatı təşkilatlarının balansında olan yaşayış binalarında 4130 ədəd lift mövcud idi. Bunlardan 3254 ədədi işlək vəziyyətdə olub, 876 ədədi isə uzun illər idi ki, istismar olunmurdu. Mövcud şəraitdə dövlət yaşayış fonduna aid binalarda quraşdırılmış liftlərin texniki istismar vəziyyətinin qeyri-qənaətbəxş olduğunu nəzərə alaraq dövlət mənzil fonduna aid binalarda istismar müddətini bitirmiş lift təsərrüfatının sağlamlaşdırılması üçün respublika prezidentinin şəxsi təşəbbüsü və göstərişi ilə dövlət büdcəsinin əsaslı vəsait qoyuluşu hesabına 2012-2014-cü illərdə 1270 ədəd lift yenisi ilə əvəz edilib. Və onlar Fövqəladə Hallar Nazirliyi Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Agentliyinin müfəttişləri tərəfindən qeydiyyata alınaraq istismarına icazə verilib. 1325 ədəd liftdə isə əsaslı təmir və bərpa işləri görülüb, bununla da yeni qəbul edilmiş mənzil fondu ilə birgə işləyən və texniki xidmət göstərilən 1246 binadakı liftlərin sayı 01.012017-ci il tarixinə 5291 ədədə çatdırılıb.

Hal-hazırda da mütəxəssislərimiz tərəfindən gündəlik daxil olan müraciətlərin araşdırılır və bütün qüvvələrini səfərbər edərək qarşıya qoyulan vəzifələrin, tapşırıqların vaxtında və keyfiyyətlə yerinə yetirmək üçün səylə çalışır".

❑ **Musavat.com**

YENİ MÜSAVAT
N 85 (6699) 24 aprel 2017

# Amerikadan separatizmə böyük dəstək - ABŞ Rusiya yolu gedir

## Elçin Mirzəbəyli: "Dəyərlər itəndə prinsip etibarı ilə hər şey iflasa uğrayır, bu gün gücün siyasəti ortadadır..."

**Son illərdə Amerikanın Rusiyanın tarix boyu yeritdiyi dünya siyasətinə oxşar siyasət yürütdüyünün şahidi oluruq. Belə ki, özünü demokratiyanın beşiyi sayan Birləşmiş Ştatların separatçı qüvvələrə yardım etdiyi barədə dəfələrlə faktlar meydana çıxıb.**

Son olaraq, Amerikanın Müdafiə Nazirliyi (Pentaqon) İraqın şimalındakı kürd muxtariyyətinə 300 milyon dollar dəyərində hərbi texnika və silah-sursat göndərməklə bağlı Konqresə təklif göndərib. "Sputnik Azərbaycan" xarici mətbuata istinadən xəbər verir ki, ABŞ Dövlət Departamenti Pentaqonun təklifini müsbət dəyərləndirib. Əgər Pentaqonun tələbi Senatda qəbul edilərsə, hərbi texnika 1 ay ərzində İraqın şimalındakı kürd muxtariyyətinə göndəriləcək. ABŞ-ın Türkiyə ilə sərhəddə "Kürdüstan" dövləti yaratmaq planı gündəmdədir.

Bütün bunlar onu göstərir ki, ABŞ-ın öz maraqları naminə apardığı siyasət getdikcə öz mahiyyətini açıq göstərməklə yanaşı, demokratiya sistemini isə arxa plana atır. Rəsmi Vaşinqton ənənəvi siyasətindən geri çəkildiyi açıq görünməkdədir. Xüsusilə, bu hal biznesmen prezident Donald Trampın gəlişindən sonra daha da güclənib.



Politoloq Elçin Mirzəbəyliyə görə, Amerikanı "demokratiyanın beşiyi" saymaq düzgün deyil: "Demokratiyanın beşiyi Qədim Romadır. Dəyərlər itəndə prinsip etibarı ilə hər şey iflasa uğrayır. Amerikanı müasir dövrün Roması hesab etmək olar. Vaxtilə SSRİ ilə aparılan ideoloji savaşdakı demokratik ənənə yoxa çıxmaqdadır. Necə ki Romada "Roma azad romalılar üçündür" şüarı var idi, digər xalqlara bu yanaşma tətbiq olunmurdu, eyni yanaşma hazırda Birləşmiş Ştatlardadır. Kürdlərlə bağlı məsələ Amerikanın Yaxın Şərqdəki strategiyasıdır. Bu məsələdə Rusiya ilə ABŞ-ın mövqeləri üst-üstə düşür. Vaxtilə respublikaçıların, yəni Corc Buşun başlatdığı missiyanı eyni ilə hazırda Donald Tramp həyata keçirir. "Kürdüstan dövləti" məsələsini ortaya atmaqla həm ərəb, həm də türk dünyası üçün ciddi problem mənbəyi yaradıblar. Eyni aspekt şübhəsiz İranla da bağlıdır. Bu məsələ İranı da narahat edən amillərdəndir. Bu faktordan Amerika Türkiyə, İran və ərəb dünyasına qarşı istifadə etməyə çalışır. Burada təəssüflər olsun ki, demokratiya, müttəfiqlik anlayışlarını görmürük".

Politoloq gələcək baxımından ABŞ-ın bu siyasətinin davamlı olub-olmaması ilə bağlı sualımıza bu cür cavab verdi: "İndiki halda bu siyasətin ardıcıl, məqsədyönlü şəkildə həyata keçirildiyinin şahidi oluruq. Qısa zamanda bu siyasətin başa çatacağını da söyləmək olmaz. Bu prosesin qarşısının alınması üçün müqavimət gücü də görünür. Belə baxanda bu siyasətin Birləşmiş Ştatların geostrateji hədəfləri olduğu görünür. Amerika kimi dövlətlər öz strategiyasını yüz il əvvəldən müəyyən edirlər. Aparılan siyasət Amerikanın qlobal gücünün artırılmasına xidmət edir. Təəssüflər olsun ki, artıq yanaşma tərzləri dəyişib. Vaxtilə beynəlxalq hüquq normaları məsələlərin həlli üçün əsas götürülürdüsə, bu gün gücün siyasəti ortalıqdadır. Heç bir dövlət öz imici barədə düşünmür. Birləşmiş Ştatlar qlobal gücdür və hər kəs onun gücü ilə hesablaşır. İmicini kimə nümayiş etdirəcək? Bu gün söhbət gücün ədalətindən keçir, güclüsənsə haqlı və ədalətlisən. Amerika öz davranışlarını bu fəlsəfənin üzərində qurub. Demokratiya, insan haqları və digər anlayışların bu prosesdə yeri yoxdur".

❑ **Cavanşir ABBASLI**



# İrəvandakı Belarus səfirindən ermənilərə sərt cavab: "Onun sizə dəxli yoxdur..."

**Belarusun Ermənistandakı səfiri İqor Nazaruk son vaxtlar iki ölkə arasındakı münasibətlərdə problemlərin yarandığı ilə razılaşmır. Virtualaz.org xəbər verir ki, səfir "Azadlıq" radiosunun erməni xidmətinə açıqlamasında Belarus-Ermənistan münasibətlərində ciddi problemin olmadığını, iki ölkə arasında ticarət dövriyyəsinin artdığını, bir sıra proqramlar üzrə fəal əməkdaşlıq getdiyini deyib.**

Jurnalist prezident Lukaşenkonun KTMT-də erməni baş katibin seçilməsini bir neçə dəfə əngəllədiyini və Belarusun bloqqer Aleksandr Lapşini Bakıya təhvil verməsini səfirə xatırladıb. Diplomat isə bildirib ki, əvvəla, KTMT baş katibinin seçilməsi konsensus yolu ilə həll olunur, səs çoxluğu ilə deyil. "İkincisi, Lapşinə gəldikdə Ermənistanda israrla bu məsələnin Belarusla münasibətlərə təsiri barədə danışırlar. Əslində isə Lapşinin Ermənistana heç bir dəxli yoxdur".

"Siz elə adam barədə israr edirsiniz ki, onun Ermənistana heç bir dəxli yoxdur. O, bir sıra ölkələrin vətəndaşıdır, ancaq Ermənistan vətəndaşlığını daşımır. Ona görə də mən planetin 7.5 milyard sakinindən birini ayrıca müzakirə edə və ona belə diqqət ayıra bilmərəm" -Nazaruk bildirib.

Səfir daha sonra erməni jurnalistlə söhbəti davam etdirmək istəməyib və uzaqlaşıb.

# Rusiyaya demokratiya gəlsə... Rusiya gedəcək

## Ekspertlər Qorbaçovun Rusiyanı xilas təklifini dəyərləndirdilər...

**SSRİ-nin eks-prezidenti Mixail Qorbaçov Rusiyanın mövcud problemlərinin həllinin yalnız dövlət idarəçilik sisteminin dəyişməsindən keçdiyini söyləyib. Bu fikirlər M. Qorbaçovun "Taym" jurnalında dərc olunan məqaləsində yer alıb. O, Rusiyanın əsas probleminin iqtisadiyyatdakı durğunluq, həyat səviyyəsinin aşağı düşməsi, kütləvi kasıblıq, korrupsiya, müəyyən şəxslərin qeyri-qanuni varlanması, təhsilin, səhiyyənin və elmin deqradasiyası olduğunu bildirib.**



"Məncə, Rusiya yalnız demokratiya sayəsində uğur qazana bilər. Rusiya siyasi rəqabətə, real çoxpartiyalı sistemə, ədalətli seçkiyə hazırdır",- deyə Qorbaçov məqaləsində bildirib. Bəd Rusiyanın idarəçilik sisteminin dəyişməsi, daha doğrusu demokratikləşməsi nə ilə nəticələnə bilər, demokratik imperiyalar mümkünmü?

Politoloq Mübariz Əhmədoğlu "Yeni Müsavat"a bildirdi ki, Rusiyanın hazırda demokratiyaya keçməsi mümkün də deyil: "Lakin Rusiyada islahatlar təcrübəsi var və bu, heç zaman özünü doğrultmayıb, həmişə dövlətlərin parçalanması, daxildə çox böyük toqquşmalarla xarakterizə olunub. Arzu olunan variant Rusiyanın sivil siyasət yürütməsidir. Əslində Rusiya hal-hazırda özünü hərb dövləti kimi təqdim edir. Rusiya üçün silahlı qüvvə, hərbi və ya general, məsələn, Dostoyevskidən daha əzizdir. Rusun digər xalqlarla müqayisədə çox böyük mədəniyyət tarixi var. Rusiyanın özünün və qonşularının inkişafı üçün o seçim vacibdir ki, onlar öz mədəniyyətləri ilə hərəkət etməlidirlər. Belə olarsa, istənilən xalqın rəğbətini qazana bilərlər. İndiki vəziyyətdə qonşu xalqları Rusiyadan qaçıran odur ki, onlar militarist siyasət həyata keçirirlər. Bu, rus xalqının da xarakterinə təsir edir. Bu baxımdan düşünürəm ki, Rusiya idarəçilik sistemində dəyişiklik edərsə, bir neçə ilə parçalanar. Biz də daxil olmaqla, çox böyük əziyyət çəkərik. Rusiyanın demokratiyaya keçməsi o deməkdir ki, Şimali Qafqazda istənilən təhlükə yarana bilər. Demokratik idarəçilik sistemi Rusiya üçün yaddır".

Politoloq bildirib ki, indiki zamanda Rusiyanın öz daxili üçün də qüsurlu idarəçilik sistemi var: "Əvvəla, Rusiyada milli azlıqlara münasibət çox pisdir. Söhbət təkcə azərbaycanlılardan getmir, orada ermənilər, avarlar və digər qeyri-rus millətləri nəzarət altındadır. Hamısı ilə bağlı da Kremlin xüsusi planları var ki, hansı xalqın nümayəndəsi irəli gedərsə, onun qarşısını alırlar. Eləcə də Rusiyanın daxilində siyasi korrupsiya mövcuddur. Siyasi korrupsiya aradan qaldırılarsa, bu, daha yaxşı olar. Qorbaçovun bu cür fikir səsləndirməsinə gəlincə isə hesab edirəm ki, bu, onun öz şəxsi nüfuzunu qaldırmasına xidmət edir. Qorbaçov hal-hazırda çox böyük maliyyə sıxıntısı içərisindədir və səhhətində də problemlər var. Ona görə də görünür, çıxıb bu cür fikirlər səsləndirməklə, yenidən Qərb fondlarının diqqətini özünə cəlb etmək istəyir. Əgər Qərbin özündə demokratiya yerində də sayırsa, Rusiyanın demokratiyaya keçməsi təklifi nə deməkdir? Rusiyanın dağılmasının əsas əziyyətini miqrantlar baxımından avropalılar çəkər. Ona görə də hesab edirəm ki, məsələnin qoyuluşu sırf Qorbaçovun özünün şəxsi problemləri ilə bağlı ola bilər".

Politoloq Əhəd Məmmədli isə hesab edir ki, rusların fikrincə, indiki məqamda Putinə ehtiyac var, çünki o, ölkəni dağılmadan xilas edib: "20-ci əsrin sonu, 21-ci əsrin əvvəllərində çeçen müharibələri əsnasında Şimali Qafqazın bütövlüklə Rusiyanın tərkibindən çıxmaq təhlükəsi vardı. Putin isə müvəqqəti də olsa bu təhlükənin qarşısını aldı. Rusiyanın tarixinə nəzər salarsaq görərik ki, 1917-ci ildə inqilablar nəticəsində rus imperiyası dağıldı. Vladimir Lenin sonradan bu imperiyanı başqa adla qorudu və daha sonra Stalin sərhədləri bir qədər də genişləndirdi. İkinci küçə inqilabı isə Rusiyanın tarixində 1991-ci ildə baş verdi. Boris Yeltsin ortaya çıxaraq, Rusiyanın SSRİ tərkibindən çıxmasına nail oldu. Sərhədləri daralsa da, Rusiya yenə də imperiya sütununu saxlaya bildi. İndi ruslar hesab edirlər ki, üçüncü dəfə də bu cür küçə inqilabları baş verərsə, dövlətləri dağıla bilər və bu dəfə onu başqa adla saxlamaq çətin olar. Çünki istəsək də, istəməsək də Rusiya dünyada yeganə imperiyadır. Bir dövlətdə ki, 20-yə yaxın muxtar respublika, vilayət var, bu, artıq böyük göstəricidir. Yenə Rusiyanın tarixinə nəzər salsaq görərik ki, İvan Qroznıdan bəri Rusiyanın demokratiya, azadlıq dövrü sırf olaraq 1991-ci ildən 2001-ci illərə qədər olub. Yəni bu, Yeltsinin hakimiyyəti dövrünə aiddir. Yeltsinin şəxsinə qarşı çox neqativ fikirlər ola bilər. Ancaq bu adam həqiqətən də Rusiyaya demokratiya gətirdi. SSRİ dağılsa da, Rusiya Federasiyasında çox yüksək səviyyədə demokratiya var idi. Rusiyanın hər zaman iki çıxışı olub, ya imperiya olaraq qalmaq, ya da azad, inkişaf etmiş dövlət kimi olmaq. Ruslar milləti hər zaman birincini, böyük olmağı seçiblər. Buna da böyük rus şovinizmi deyirlər ki, bu, hər bir rusun təfəkküründə var. Onlar hər zaman deyirlər ki, qoy iqtisadi böhran olsun, ancaq Krım yenidən bizə qayıtsın. Tarix boyu da təfəkkür bu cür olub".

Politoloq bildirib ki, Türkiyə və Rusiyanın Azərbaycana da bilavasitə təsirləri var: "Bu iki ölkədəki daxili proseslər Azərbaycana da təsir göstərir. Yuxarıdakı tarixi faktlardan da görünür ki, Rusiyada inqilab olan zaman illərlə ölkəni idarə edən sistem, dövlət dağılır. Şəxsi fikrimdir ki, Rusiya, gec-tez dağılmalıdır və bunu Putin də gözəl bilir. Medveyev özü də prezident olan zaman müsahibələrinin birində bildirmişdi ki, Rusiyanın dağılma təhlükəsi var. İndiki Putin rejimi hakimiyyətdən inqilab yolu ilə devrilərsə, dünya siyasətində Rusiya Federasiyası adlı dövlət olmayacaq".

❑ **Əli RAİS**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 85 (6699) 24 aprel 2017



# Qarabağ səmasındakı qatı barıt qoxusu - sülh şansları azalır

**Vasitəçi dövlətlərin işğalçı ölkəyə loyal münasibəti bölgədə müharibə ehtimalını günbəgün gücləndirir; nazirlərin Moskva görüşündən sonra da danışıqların "donu" açılmaya bilər; rusiyalı publisist: "Erməni lobbisini Qarabağ ermənilərinin yoxsulluq içində və müharibə vəziyyətində yaşaması maraqlandırmır..."**

**İlin 4-cü ayı başa çatmaq üzrədir. Ancaq Dağlıq Qarabağ danışıqlarında hələ də ciddi tərpəniş yoxdur. ATƏT-in Minsk Qrupu həmsədrlərinin ötən ay regiona etdikləri səfər də nəticəsiz başa çatdı. Vasitəçilər sülh prosesi ilə bağlı nikbin bəyanatlar versələr də, prezidentlərin növbəti görüşündən danışsalar da, bu bəyanatlar elə bəyanat olaraq qaldı.**




Əsas səbəb dəfələrlə deyildiyi kimi, həmsədrlər səviyyəsində işğalçı Ermənistana ənənəvi, dözümlü yanaşmanın qalmasıdır. Təcavüzkar ölkə də bu yanaşmadan məharətlə yararlanaraq, illətdir sülh danışıqlarında təxribatçı mövqe tutur, nizamlama prosesini sabotaj edir. Dağlıq Qarabağla bağlı BMT-nin, digər mötəbər beynəlxalq təşkilatlarım qəbul etdiyi məlum qərar və qətnamələrini qulaqardı edir.

Nəticə ortadadır: bu gün konflikt zonasında müharibə riski yüksək olaraq qalır. Üstəlik, havaları istiləşməsi ilə bu risk günbəgün bir az daha böyüməkdədir. Yaranmış durumdan yeganə çıxış yolu yenə də danışıqlar prosesini hansısa səviyyədə bərpa eləmək, sülh nizamlanmasına inamı bərpa eləməkdir.

***

Bu arada Rusiya, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin üçtərəfli görüşünün vaxtı məlum olub. Diplomatik mənbələrdən APA-ya verilən məlumata görə, Sergey Lavrov, Elmar Məmmədyarov və Edvard Nalbəndyan arasında görüş aprelin 27-də Moskvada reallaşa bilər. Başqa bir mənbə isə sayta xarici işlər naziri Elmar Məmmədyarovun aprelin 27-də Moskvaya səfər edəcəyini təsdiqləyib.

Elmar Məmmədyarovun özü də ötən ay Rusiya tərəfinin təşəbbüsü ilə üçlü görüşün keçiriləcəyini bildirmişdi. Rusiya XİN rəsmi nümayəndəsi Mariya Zaxarova isə aprelin 19-da keçirdiyi ənənəvi brifinqdə nazirlərin üçtərəfli görüşünün keçirilməsinin gözlənildiyini açıqlamışdı.

Necə deyərlər, heç olmayan danışıqlardansa, nəsə olması yaxşıdır. "İstənilən pis sülh müharibədən yaxşıdır" tezisini də ciddiyə alsaq, ümid eləmək qalır ki, nazirlərin görüşü hansısa daha mühüm və yüksək səviyyəli görüşə, yeni mərhələyə zəmin yaradacaq. Söhbət prezidentlərin ötən ilin iyunundan üzü bəri reallaşa bilməyən təmasından, dondurulmuş prosesin donunu açmaqdan gedir. Ancaq görüş xətrinə görüş də heç kimə lazım deyil - ələlxüsus ərazisinin 20%-i on illərdir işğal altında olan Azərbaycana. Rəsmi Bakı bunu dəfələrlə açıq şəkildə bəyan da edib.

Situasiya isə həqiqətən çevik addımların atılmasını tələb edir. Bəs bunu kim etməlidir? Siyasi analitiklərin məsələyə baxışlarını təqdim edirik.

***

"Dağlıq Qarabağ münaqişəsi ilə bağlı vəziyyət xeyli dəyişib və ona görə də hərtərəfli hazır olmaq lazımdır". Bu sözləri axar.az-a açıqlamasında politoloq Arzu Nağıyev deyib. Ekspertin sözlərinə görə, Azərbaycanın hərbi təlimlər keçirilməsi və bu yöndə atılan addımlar müsbət hal kimi qiymətləndirilməlidir.

"Qarabağ münaqişəsinin həllində ən mühüm rolu Rusiya oynamalıdır. Qərbin də açıq tələbi o oldu ki, SSRİ-nin varisi kimi Rusiyanın münaqişənin həllini öz üzərinə götürməməsi çox təhlükəli tendensiyaya çevrilə bilər. Rusiya müharibə ocaqlarının söndürülməsində birbaşa iştirak etməlidir. Ancaq Moskvanın xeyir-duası ilə dolayı yolla Serj Sərkisyanın "müharibə partiyası" Ermənistanda yenidən hakimiyyəti zəbt etdi. Məlum məsələdir ki, onlar status-kvonu uzatmağa çalışacaqlar. Bu isə məsələnin həlli üçün yaranmış əlverişli şəraiti və müsbət addımların atılmasını əngəlləyə bilər", - deyə ekspert qeyd edib.

Politoloqa görə, Rusiya münaqişənin müsbət həllində maraqlı olmalıdır, çünki bu gün regionda iqtisadi, siyasi və daşınmalar planında Qərb üçün ən vacib dövlətlərdən biri Azərbaycandır: "Bu mənada hesab edirəm ki, Qərbin tələbləri və Rusiyanın atdığı addımlar məsələnin həlli istiqamətinə yönəlməlidir. Ermənistana gəldikdə, son parlament seçkiləri göstərdi ki, İrəvan Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həllinə razı olmayacaq. Qarşıdan yay fəslinin gəlməsi Qarabağda müharibə ehtimalını daha da artırır. Azərbaycan Ordusu ermənilər tərəfindən hər cür təxribatlara qarşı tam ayıq-sayıq olmalıdır. Bir sözlə, vəziyyət xeyli dəyişib və ona görə də hərtərəfli hazır olmaq lazımdır".

***

Erməni tərəfinin Qarabağ məsələsində güzəştsiz mövqe tutmasında, sözsüz ki, beynəlxalq erməni lobbisinin və təcavüzkara dəstək verən bəzi Qərb siyasətçilərinin də mühüm rolu var. Fransadakı prezidentliyə namizədlərin, ələlxüsus Fransua Fion və Marin Le Penin Qarabağ məsələsində tutduqları məlum mövqeyi buna sübutdur.

Rusiyalı təhlilçi-publisist Mixail Belyayevin bu xüsusda fikri diqqət çəkir. Musavat.com-un "Vestnik Kavkaza" nəşrinə istinadən verdiyi məlumata görə, onun təhlili məqaləsində deyilir: "Bu gün fransız ultramillətçiləri erməni seçicilərinin səsləri və ianələri uğrunda mübarizədə aqanbekyansayağı tezislərlə silahlanıblar. Onlardan ötrü Dağlıq Qarabağ boş şey, uzaq Asiya məkanındakı bir guşədir - hansını ki, xəritədə belə, çətin ki, tapa bilsinlər. Marin Le Pen və onun tərəfdarlarından fərqli olaraq azərbaycanlılar və ermənilər üçün uğrunda qan tökdükləri və tökməkdə davam etdikləri bu torpaq eyni zamanda onların ölkələrinə öz potensialını reallaşdırmağa imkan vermir. Yalnız ümid eləmək qalır ki, son on illiklər ərzində müharibənin ağrı-acısını kifayət qədər dadmış bu iki Qafqaz xalqı bir həqiqəti başa düşmək üçün yetərincə təcrübə qazanıblar: azərbaycanlıların və ermənilərin taleyi avropalı ultramillətçilərdən ötrü tamamilə maraqsızdır, Dağlıq Qarabağla bağlı mövqelərini isə ultramillətçilər nə qədər özlərinə sərfdir, bir qədər dəfə dəyişəcəklər. Erməni diasporu Dağlıq Qarabağın hətta Fransaya birləşdirilməsini də dəstəkləyə bilər, amma azərbaycanlılar bununla heç yerə yox olmayacaqlar. Ona görə də patriotik ekstazla Le Penin adını çəkməzdən öncə bir sərf etməyən gerçəyi yada salmaq lazımdır: Fransa erməniləri Parisin elit rayonlarında yaşayır, Qarabağ erməniləri isə - yoxsulluq içində və hərbi vəziyyətdə. Və onlar öz yerlərini heç vaxt dəyişməyəcəklər".

Məsələ də zatən, bundadır. Ancaq əfsuslar olsun ki, bir sıra Qərb siyasətçiləri, daha betəri, dövlətin rəsmi şəxsləri hələ də varlı erməni lobbisinin on illərdir çaldığı havaya oynamaqdadırlar - Güney Qafqazda, Qarabağda sülhü, əmin-amanlığı deyil, varlı ermənilərin paralarını, seçici səsini üstün tutduqları üçün.



## "Bir ölkənin ki başçısı Sərkisyan ola..."

**"Bir ölkənin ki başçısı Sərkisyan ola, ondan nə gözləmək olar". Bu sözləri Ermənistan Prezidenti Serj Sərkisyanın ordunu mülki şəxslərə həvalə etməsi ilə bağlı açıqlama verən politoloq, deputat Rasim Musabəyov deyib (Axar.az).**

Deputat bu fonda Sərkisyanın vaxtilə müdafiə naziri olmasına diqqət çəkib: "Vaxtilə müdafiə naziri işləyən Sərkisyanın özü məgər hərbiçidir? Ümumiyyətlə, başsız Ermənistanda hərbiçilərə mülki şəxslər rəhbərlik edib və edir. Əslində, bu, yeni bir şey deyil, ölkə rəhbərliyinin Ermənistanı faciəyə sürükləyən qərarlarının ən bariz nümunəsidir".

Qeyd edək ki, Ermənistanın hakim Respublika Partiyasının parlament fraksiyasının üzvləri Artak Zakaryan və Artak Davtyan 15 apreldə müdafiə nazirinin müavinləri kimi vəzifələrinin icrasına başlayıblar. İxtisasca hüquqşünas və diplomat olan müdafiə naziri Vigen Sərkisyanın müavinləri də hərbi mütəxəssis hesab edilmirlər. Zakaryan parlamentdə xarici əlaqələr komissiyasına, Davtyan isə elm, mədəniyyət, təhsil, gənclər və idman komissiyasına rəhbərlik edib.

YENİ MÜSAVAT
N 85 (6699) 24 aprel 2017

# Bakının mərkəzində "yaşıl soyqırım"

## 100-ə yaxın ağacı məhv edib yerində bina tikirlər

**Bakının Nəsimi rayonu, Mircəlal küçəsindəki 2, 4, 6, 8, 10 saylı binaların qarşısında olan böyük bir ərazi zəbt edilərək hasarlanıb. Sakinlərin dediyinə görə, beş binanın ortasında 11 mərtəbəli yaşayış binasının tikilməsi nəzərdə tutulur. Onlar iddia edir ki, ərazidə 150-yə yaxın ağac məhv edilib.**

Musavat.com-un müxbiri adıçəkilən ərazidə olub, sakinlərin gileyini dinləyib. Binaların həyətində təqribən bir futbol meydançası böyüklüyündə ərazi hasarlanıb, tikinti işləri gedir. Dərin özül qazılıb, betonlama konstruksiyaları quraşdırılır. Tikinti aparılan ərazi ilə binalar arasındakı məsafə çox azdır. Narazı sakinlər ərazinin əvvəlki vəziyyətinin fotolarını bizə göstərdi. Müqayisə edərək demək olar ki, əvvəlki yaşıllıqdan əsər-əlamət qalmayıb. Ətrafa yayılan toz-torpaq, səs-küy sakinləri cana yığıb.

Sakinlərdən Rüxsarə Eyvazova aparılan qanunsuz tikinti ilə bağlı heç bir tədbir görülmədiyini bildirdi: "2016-cı ilin sentyabrında tanımadığımız şəxslər gəlib, ərazidəki ağacları kəsdilər. Sakinlər səliqəli bağlar düzəltmişdilər. Bura sakinlərin yeganə istirahət yeri idi. Camaatın gözü önündə ağacların dibinə "kislota" tökürdülər ki, qurusun. Buna da nail oldular. 20-25 gündür ki, tikinti işlərinə başlanılıb. 100-ə yaxın ağacı bulduzerlə kökündən çıxardılar. Neçə ilin çinar və şam ağaclarını bir göz qırpımında doğradılar. Yaşıllaşdırma İdarəsinə üç dəfə zəng vurmuşam, əməkdaşları gəliblər. Ancaq heç bir tədbir görmədilər. Hətta idarənin əməkdaşları mənə dedilər ki, özünə əziyyət verib, buraya gəlmə".

Sakinlərin sözlərinə görə, tikinti başlamazdan öncə bu ərazidə park salınacağını deyərək onları aldadıblar: "Ərazini hasarlayanda sakinlərə yalandan vəd verdilər ki, park salınacaq. Camaatı inandırdılar. Sonra dedilər ki, bağça olacaq. İlk öncə tikinti sahəsini kiçik götürmüşdülər. Sonradan qalan bağları da söküb, ərazini hasara aldılar. İndi məhəllədə insanların normal yolu yoxdur. Yalan vədlər verirlər ki, sizə yeni yol çəkəcəyik. Beş binanın həyətini zəbt edib, qanunsuz yolla 11 mərtəbəli bina tikirlər. Qanunda da var ki, binalar arasındakı məsafə 30 metrdən az olmamalıdır. Hər şey bir tərəfə qalsın, bu qədər yaşıllığı məhv etmək olarmı? Ekologiya Nazirliyindən və Yaşıllaşdırma İdarəsindən də gəldilər, ancaq bir xeyri olmadı. Tikintidə çalışan fəhlələrdən biri buranın Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənova məxsus olduğunu bildirib.













Lakin biz həmin məmurun adından istifadə edildiyindən şübhə edirik. Yəqin ki, aidiyyəti qurumlar bu məsələni araşdırar. Narazılığımızı bildirəndə bizi onunla hədələyirlər. Əvvəlcə biz aldandıq. Elə sandıq ki, dövlət tərəfindən park salınacaq. Tələsik tikinti aparan şirkət materialları əraziyə salıb, tez hasarladı. Yoxsa imkan verməyəcəkdik. Təsəvvür edin ki, burada hündürmərtəbəli bina tikilsə, vəziyyətimiz necə çətin olacaq. Binalar bir-birinə yaxın olduğundan nəinki hava gəlmir, telefon dalğası çətinliklə tutur. 20 metrlik məsafədə tikilən binanı gözünüzün önünə gətirin. Bəs binanın həyəti, camaatın gediş-gəlişi necə olacaq? Bir sözlə aləm qarışacaq bir-birinə…".

Qarşı tərəflərin də mövqeyini dərc etməyə hazırıq.

❑ **Məğrur MƏRD**

**Fotolar müəllifindir**

**İzrail ənənəsi əsasında özəl tibbi sahədə 20 illik təcrübə!**
**XƏSTƏLİKDƏN ƏZAB ÇƏKƏN İNSANLARA ƏSASƏN KİŞİLƏRƏ!**
**DİQQƏT!!! AXIRINCI ŞANS!!!**

Azərbaycanda və yaxud xaricdə diaqnozun təsdiqi və tam müalicəsi mümkün olmayıbsa, **doktor VAİZ SƏMƏDOV** şəxsi tibbi metodikası ilə Sizin uğurlu və daha qarantili olaraq aşağıdakı xəstəliklərinizi keyfiyyətli müayinə və müalicə edə bilər.

- **Diaqnozu bilinməyən ağır hallar;**
- **Xərçəngə şübhəli olan prostat düyünlü adenoması. Prostatitlər; Qipertrofiya və ya Atrofiya**
- **Cinsi zəiflikdən tam impotensiyadək, marağın və aktların azalması;**
- **Vaxtından tez toxum ifrazatı (səbəbdən asılı olmayaraq)**
- **Toy gecəsinin uğursuzluqları (kişi tibbi problemlər)**
- **Sidikdə və ya spermada qan;**
- **Spermanın azalması və itməsi;**
- **Kişi cinsi orqanının birdən əyilməsi və balacalması;**
- **Oğlan uşaqlarında cinsi orqanların (penisin və xayaların) inkişafdan qalması;**
- **Hormonal və infeksion səbəbli sonsuzluq (kişi və qadınlarda);**
- **Tala-tala və hərtərəfli saçların tökülməsi;**
- **Gecə-gündüz uşaq və böyüklərdə sidik aktların pozulmaları; Enurez**
- **50 yaşdan sonra oynaqlarda və onurğada baş verən qeyri travmatik ağrılar və hərəkət çətinlikləri;**
- **Psixo-nevroloji gərginlik, yuxusuzluq, qorxu, yaddaşın azalması və digər qəribə olan şikayətlər.**
- **Zöhrəvi xəstəliklərdən sonra qalıqlar və ağırlaşmalar.**

**D-r V.Səmədovun əsas tibbi prinsipi - keyfiyyətli və təkrarsız müalicə aparmaq üçün xəstəliyin əsl və bütün səbəblərini aşkar etmək zəruridir.**

*Qəbula yazılmaq və ünvanı öyrənmək üçün saat 11-dən 23-ə dək, (050) 213-88-05 nömrəsinə, **d-r Vaiz Səmədova** zəng etmək olar.*

Qəbul növbə ilə hər gün saat 12-dən sonra başlayır.



# 20 yaşlı qızın qatili: "O qədər sərxoş idim ki, vurduğumu bilməmişəm"

**Bakıda sərxoş vəziyyətdə idarə etdiyi avtomobillə 20 yaşlı qızı vuraraq öldürən şəxsin məhkəməsi başlayıb. Hakim qarşısına çıxarılan 38 yaşlı şəxs əməlindən peşman olduğunu və sərxoş olduğu üçün sükan arxasında yatdığını etiraf edib.**

Musavat.com xəbər verir ki, Bakı Ağır Cianyətlər Məhkəməsində bir nəfərin ölümü ilə nəticələnən yol nəqliyyat hadisəsini törətməkdə təqsirləndirilən 1979-cu il təvəllüdlü Qaybalıyev Tahir Bilal oğlunun cinayət işi üzrə məhkəmənin baxış iclası keçirilib.

Hakim Rahib Salmanovun sədrliyi ilə keçirilən məhkəmə prosesində dövlət ittihamçısı ittiham aktını elan edib. İttihama görə, Tahir Qaybalıyev ötən il oktyabr ayının 2-də Xətai rayonu ərazisində yol nəqliyyat hadisəsi törədib. Gəncə prospektindən üzü Ukrayna dairəsinə doğru hərəkət edən Tahir Qaybalıyev idarə etdiyi "Mercedes" markalı avtomobil ilə yolu keçmək istəyən piyada 20 yaşlı Səriyyə Əliyevanı vurub. Araşdırma zamanı məlum olub ki, T.Qaybalıyev qəzanı törədən zaman sərxoş olub.

İttihamda yazılır ki, qəzanı törədən T.Qaybalıyev hadisə yerindən qaçıb. Daha sonra Qaybalıyevi polis əməkdaşları saxlayıb. Qəza zamanı ağır xəsarət alan Səriyyə Əliyeva 4 gün sonra müalicə aldığı xəstəxanada dünyasını dəyişib.

Məhkəmədə sərbəst ifadə verən Qaybalıyev törətdiyi əməli etiraf edib və özünə heç bur halda haqq qazandıra bilməyəcəyini söyləyib: "Nə deyə bilərəm? Bir hadisədir olub. Səhvimi başa düşürəm. Nə desəm, nə danışsam, mənasızdır. Amma bircə məsələni qeyd edim ki, hadisə yerindən qaçmaq məsələsini başa düşə bilmirəm. Çünki mən o qədər sərxoş idim ki, adam vurduğumu bilməmişəm. Sadəcə, səs eşitdiyimi xatırlayıram".

Məhkəmədə məlum olub ki, Qaybalıyev qəzanı törədəndən 25 dəqiqə sonra Dövlət Yol Polisinin əməkdaşları tərəfindən saxlanılıb.

Hakim Rahib Salmanov təqsirləndirilən şəxsə sual verərək hadisədən nə qədər əvvəl içki qəbul etdiyini soruşub. Qaybalıyev isə deyib ki, dostları ilə bir neçə saat yeyib-içiblər. Nə qədər içdiyini xatırlamadığını deyən Qaybalıyev maşınına necə mindiyini də yada sala bilmədiyini söyləyib.

Hakim növbəti sualında Qaybalıyevdən niyə bu halda sükan arxasına keçdiyini və dostlarının niyə buna icazə verdiyini soruşub. Qaybalıyev cavabında deyib: "Cənab hakim, mən günahkaram, düzdür. Amma inanın necə maşına mindiyimi bilmirəm. Amma sükan arxasında yatmışam. Bunu xatırlayıram. O qədər içmişdim ki, yuxu məni tutub. Səs eşidib oyandım. Sonra da yola davam elədim. Ayıq sürücü çağırmağı o an düşünəcək halda deyildim. Dostlarımın da məni bu halda buraxmasına gəlincə, onlar da elə mən halda olublar. Yoxsa mən indi burada olmazdım".

Daha sonra məhkəmədə mərhumun hüquqi varisi kimi tanınan anası Şəhla Ağahüseynova ifadə verib. Göz yaşlarını saxlaya bilməyən ana deyib ki, qızının ölümünə səbəb olan şəxsə ən ağır cəza verilməsini istəyir. Özünü narahat hiss etdiyi və ağladığı üçün ifadə verməkdə çətinlik çəkən Ş.Ağahüseynovadan istintaqa verdiyini ifadəsini təsdiq edib-etməməsi soruşulub.

İfadəsini təsdiq edən Ş.Ağahüseynova qısa çıxışında deyib: "Heç olmasa maşını saxlayardı. Bu qədər insafsızlıq olar? Ətrafda olanlar xəstəxanaya çatdırıb. Gül kimi balamı 20 yaşında məndən aldı".

Qeyd edək ki, qəzanı törədən 39 yaşlı Qaybalıyev subaydır və bu, onun ilk məhkumluğudur.

Növbəti məhkəmə prosesi mayın 1-nə təyin edilib.

❑ **İ.MURADOV**

YENİ MÜSAVAT
N 85 (6699) 24 aprel 2017

# Uşaqları terrorçu şəbəkələrə kimlər və necə cəlb edir?

## Azyaşlı kamikadzelər və onları bu yola aparan səbəblər...

**Elə həftə olmur ki, dünya yeni bir terror hadisəsi ilə sarsılmasın. Hər dəfə də fərqli ssenari, bir-birindən fərqli qurbanlar, kamikadzelər. Amma son illərdə terror təşkilatlarının daha çox uşaq kamikadzelərdən istifadə etdikləri nəzərdən yayınmır. Burada isə ilginc statistika və üslublar diqqəti cəlb edir. Uşaqların cəlb edilmə formalarından tutmuş, onların işlədilmə formalarına qədər...**

Öncə statistika barədə. İlin əvvəlindən "Boko Haram" qruplaşması 27 uşaqdan terrorçu kamikadze kimi istifadə edib. Bu barədə BMT-nin uşaq fondu UNİCEF-in açıqlamasında bildirilir. Vurğulanır ki, terrorçu kamikadze kimi qruplaşmanın oğurladığı uşaqlardan istifadə olunur. Onların arasında qız uşaqları üstünlük təşkil edir. Qeyd edək ki, son illərdə qruplaşma Nigeriyanın kəndlərindən yüzlərlə qız uşağını oğurlayıb.

"İslam dövləti" (İŞİD) qruplaşmasının döyüşçüləri terror aktlarının icrası üçün 1500 uşaq-kamikadze hazırlayıblar. Bu barədə "Alalam" telekanalı məlumat yayıb.

İraq yezidilərinin oğurlanması işləri üzrə idarədən aşağıdakı məlumatları bildiriblər:

"Son iki ildə 2600 yezidi kürd azad edilib, bununla yanaşı, yaraqlılar əsirlikdə 3700 adam saxlayırlar. Bundan başqa regionda islamçılar tərəfindən qətlə yetirilən 33 qardaşlıq məzarı aşkar edilib. Bu məlumatlar İŞİD-in İraqın əsasən kürdlərin yaşadığı Sincar şəhərinə nəzarətinin ikinci ildönümü ilə əlaqədar yayılıb. Bu yaşayış məntəqəsini ələ keçirən yaraqlılar minlərlə yezidi kürdü qətlə yetirib, qadınları isə qul ediblər".

Ayrı-ayrı nümunələrdə isə həmin uşaqlar yaxalanıblar. Məsələn, 2016-cı ilin avqustunda Türkiyədə kamikadzenin özünü partladaraq 51 nəfərin ölümünə səbəb olan terrordan bir gün keçməmiş növbəti terrorçu İraqda yaxalanıb. İŞİD tərəfindən zombiləşdirilən uşaq Kərkükdəki şiə məscidində terror törətmək istəyib. Messinin formasını geyinən uşaq İraq polisləri tərəfindən yaxalanandan sonra göz yaşlarını saxlaya bilməyib.

Təhlükəsizlik qüvvələrinə müqavimət göstərən kamikadze az vaxtda zərərsizləşdirilib. Qeyd edək ki, həmin vaxt Kərkükdə 2 kamikadze özünü partladıb. Ölüm halı qeydə alınmasa da, 3 nəfər yaralanıb. Adamaua əyalətinin Qombi şəhərində böyük bir bazarda törədilən terror aktında xeyli sayda insan yaralanıb. "Daily Trust"a məlumat verən hadisə şahidləri hücumu uşaq yaşlarında bir kamikadze terrorçu tərəfindən törədildiyini bildirib.

### Uşaqları kamikadze düşərgələrində yetişdirirlər

Bu məsələdə diqqəti çəkən əsas məsələ "Uşaq kamikadze" düşərgəsi ilə bağlıdır. Belə ki, minlərlə insanın həyatına son qoyan İŞİD terror təşkilatı koalisiya qoşunlarının ağır texnika və silahlarını sıradan çıxarmaq üçün "Uşaq kamikadze" düşərgəsi yaradıb. Yaradılan düşərgələrdə yaşı 16-dan aşağı olan 300 uşaq yetişdirilib. Onlardan quru qoşunlarının yeridiləcəyi təqdirdə kamikadze kimi istifadə olunacağı bildirilir.

İngiltərənin nüfuzlu "The Daily Telegraph" qəzetinin verdiyi məlumata görə, yetişdirilən uşaqlardan sınaqdan uğurlu keçmək üçün tutulmuş əsirlərə işgəncə verilməsi və öldürülməsi tələb olunur. Nigeriyada "Boko Haram" üzvü olduğu bildirilən terrorçu uşaq kamikadze ən azı 20 nəfəri öldürüb. "Nigeria News" və "Daily Trust" qəzetlərinin xəbərlərinə görə, ölkənin bir çox şəhərində kamikadze hücumları təşkil edən Boko Haram terror təşkilatı bu dəfə bazarı hədəfə alıb.

### Uşaqları niyə "canlı bomba" olaraq seçirlər?

Bu günə qədər bu cür "könüllü intiharçılar" əsasən gənc və orta yaşlılar arasından seçilirdi. Cins üzrə kateqoriyalaşdırdıqda isə kişilərin 60, qadınların 40 faiz olaraq seçilməsi diqqət çəkirdi. Bəs niyə uşaqlar? Seçimin onlardan yana edilməsinin səbəbi nədir?

"Yeni Müsavat" uşaqlardan ibarət "canlı bomba"ların necə seçilməsi, beyinlərinin "yuyulması", onların prosesə necə buraxılması ilə bağlı detalları araşdırıb.



Öncə ondan başlayaq ki, BMT Uşaq Fondu (UNİSEF) artıq bununla bağlı narahatlığını ifadə edən məlumat yayıb. Məlumata görə, Nigeriyada fəaliyyət göstərən "Boko Haram" adlı terror təşkilatı daha çox uşaq kamikadzelərdən istifadə etməyə başlayıb ki, bu da ciddi narahatlıq yaradır. Belə ki, törədilən hər 5 terror aktından 1-də məhz uşaq kamikadzelərdən istifadə olunur. Onlardan da 75 faizi azyaşlı qızlardır.

Təkcə 2015-ci ildə Kamerunda uşaq kamikadzelər 21 belə terror aktı törədib. Nigeriyada uşaqların törətdiyi teraktların sayı isə il ərzində 17 olub. UNİSEF-in məlumatına görə, bu teraktlarda 2 yaşdan sonra oğurlanan uşaqlardan daha çox istifadə olunur.

"Amnesty International" hüquq-müdafiə təşkilatının hesablamalarına görə, silahlıların əlində 2 minə yaxın uşaq var. Onlar seks xidməti həyata keçirməklə yanaşı, həm də terror aktlarında istifadə olunurlar.

Qeyd edək ki, "Boko Haram" 2002-ci ildə yaradılıb və əsasən Nigeriya ərazisində fəaliyyət göstərir.

Ötən il dünyada yayılan bir uşaq kamikadze görüntüsü isə dəhşətin özü idi. Belə ki, yetkinlik yaşına çatmayan Cəfər əl-Təyar "vəzifəyə" göndərilmədən öncə qorxusundan hönkürtü ilə ağlayır. Terrorçu-kamikadzenin ağladığı kadrları onun "həmkarları" şimali Suriyada lentə alıblar. Belə ki, xidmət etdiyi dəstə komandirləri ona partlayıcı maddə yüklənmiş zirehli maşına oturaraq düşmənin obyektini partlatmağı əmr ediblər. Terrorçunu son əmri yerinə yetirməzdən öncə son dəqiqələrdə çəkiblər, "The Times"in yazdığına görə, milliyyətcə özbək olduğu ehtimal edilən Təyyarın ölümə göndərilərkən onun nə dərəcədə qorxduğu üzündə ifadə olunur və o ağlayır. Cəfəri tapşırığa göndərməzdən öncə yaraqlılardan biri oğlanı özbəkcə ruhlandırmağa çalışıb və ona dəhşətli anlarda Allahı unutmamağı tapşırıb.

"Mən sadəcə qorxdum. Mən qorxuram ki, bacarmaram", - Cəfər əl-Təyyar cavab verib, amma tapşırığı yerinə yetirib. Digər fotoda güclü partlayış nəticəsində əmələ gələn göbələk əks olunur.

İraqın Mosul şəhərinə endirilən aviazərbələrin ardından İŞİD növbəti terror cəhdini həyata keçirib. İraqın təhlükəsizlik qüvvələri üzərinə partlayıcı bağlanmış 7 yaşlı uşağı saxlayıblar. Uşağın əynindəki "Çelsi" FK loqosu olan geyimin altında çox sayda naqillərlə bərkidilmiş dinamitlər gizlədilib. İraqlı döyüşçü uşağın qorxduğunu görüb, danışdıraraq adını və onu bura kimin gətirdiyini soruşub. Uşaq adının Uday olduğunu və onu buraya dayısı "Amo"nun göndərdiyini deyib. Hərbçilərin sözlərinə görə, uşağın bədəninə bombanı İŞİD terrorçuları bağlayıblar. Onların seçilmə prinsipi - digərlərindən fərqlənmirlər və arxalarında adam olmur.

Tarixdə uşaq əsgərlərdən ilk dəfə Vyetnam müharibəsində, kamikadze uşaqlardan İsrail-Fələstin münaqişələrində istifadə edilib. Hazırda isə uşaqların bomba olaraq ən çox istifadə edildikləri region Yaxın Şərq, ən çox uşaq əsgərə malik dövlət Myanmadır.

Terroristlər uşaq kamikadzeləri seçərkən bir neçə nüansa diqqət edirlər. Seçilənlərin tək önəmli oxşarlığı heç diqqət çəkməmələridir. Kənardan baxılanda sıradan insanlar, amma psixoloji analizləri ediləndə bu nəticələr ortaya çıxır. Onlar narsistdilər, tarixdə hansısa formada yer almaq arzusundadılar. Bundan başqa, hücumçu və aqressivdilər. Arxalarında əhəmiyyətli sayılacaq heç bir iz qoymurlar, yardım aldığı şəxslər barədə isə hər hansı məlumat vermirlər. Canlı bombaların əsasən gənc, uşaq və heç bir bağlantısı olmayan insanlardan ibarət olması, bəlli bir sosial məntiqi özündə əks etdirir: ölümləri yeri doldurula bilməyən bir boşluq yaratmır. Mütəxəssislər həmçinin deyirlər ki, terrorizm bəzi peşələr kimi gəlir gətirir və sosial "nüfuz" qazandırır.

Bundan başqa, terror təşkilatları qurbanları seçən zaman sentimental, spontan qərarlar verməyi sevən, təsir altına düşən tiplərə üstünlük verirlər. Bundan başqa, onların cəmiyyətdə özlərinə yer tapa bilməyən tiplər olması arzuedilləndir. Aksiyaçıların içində özünü fəda etmə, bir qəhrəman olma duyğusu ön plana çıxa bilir. Bundan başqa, ciddi şəkildə sosial təzyiqi də yaddan çıxarmaq olmaz. Təzyiqin ana xətti aşağıdakı kimidir: "Bunu həyata keçirmədiyin zaman qrupun içində hörmət görən bir insan kimi yaşama şansın yoxdur".

Terror aksiyasından öncə canlı bombaların motivasiya olmaları üçün narsist yaralarını deşirlər, varlıqlarının təhlükə altında olduğu təkrar-təkrar vurğulanır. Bununla da daxillərində şiddətli bir hücumçu potensialı yaradılır. Sözügedən şəxslərin şüuraltına isə bu fikir yeridilir: "Sən bu aksiyanı həyata keçirməsən, burada da insan kimi hörmət görməyəcəksən. Amma bunu həyata keçirsən, həm qrup adına hərəkət edirsən, həm də özünü qəhrəman kimi tarixə salacaqsan".

İntihar terrorizminin altında "şəhid olma" inancı dayanır. Başqa sözlə, bunu hisslərin pis əməllər uğrunda söndürülməsi də adlandırmaq mümkündür. Adət-ənənələrlə yetişən dindar insanlar o biri dünya ilə bağlı vədlərə daha asan inanırlar. İnancları da budur: ən böyük mükafat onların olacaq, həm cənnətdə, həm də öldükdən sonra yer üzündə, qəhrəman mərtəbəsinə yüksələcək, ölümsüz olacaqlar....

### 15 yaşlı kamikadzenin valideyninə məktubu: "Mən evlənmək istəyirdim, amma siz qoymadız..."

İraqın Mosul şəhəri yaxınlığında İŞİD-dən azad olunmuş təlim mərkəzində özünü ötən il partladaraq onlarla insanın ölümünə səbəb olan 15 yaşlı kamikadzenin valideynlərinə yazdığı məktub aşkar olunub. Məktubda 15 yaşlı Əla ABd əl-Akidi kamikadze olmasının səbəblərini belə izah edib: "Mənim əziz ailəm, bağışlayın məni. Qəmlənməyin və qara matəm geyimi geyinməyin. Mən evlənmək istəyirdim, amma siz qoymadınız. İndi isə Allahın izni ilə cənnətdə 72 hüri ilə evlənəcəm".

Bu məktub öz ünvanına çatmayıb və digər onlarla məktub kimi İŞİD-in tərk etdiyi düşərgədə qalıb.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT

Son səhifə

N 85 (6699) 24 aprel 2017




# Jurnalist canlı yayında əsnədi, bütün Amerika gördü

**Amerikanın Kanzas ştatındakı KSCW-DT telekanalında ilginc xəta baş verib. Belə ki, kanalda hava proqnozunu təqdim etmək üçün canlı yayıma qoşulan jurnalist xanımın qəfil ekrana gətirilməsi ilə tamaşaçılar gülmə krizinə giriblər. Jurnalist ekranda göstərildiyindən xəbərsiz şəkildə qəribə səslər çıxararaq əsnəyib. Bu zaman texniki işçilər onun səsini yox etməli olduqları halda, bunu unudublar. Son nəticədə bütün Amerika, indi isə dünya jurnalist Didi Sanın necə gurultu ilə əsnədiyinin şahidi olub. Verilişin aparıcısı Ross Yansen isə bu situasiyanı yumorla öldürməyə çalışıb: "Didi bu gün olduqca yorğun görünür".**

Didi də bu durumdan çıxmaq üçün zarafata keçib: "Kimsə lazımi vaxtda düzgün düyməni basıb ki, mənim bu cür duruma düşdüyümü görsün və hamıya göstərsin".

Jurnalist eyni zamanda etiraf edib ki, bu gün hədsiz dərəcədə yorulub. Sosial şəbəkə istifadəçiləri isə öz şərhlərində jurnalisti yüksək özünüqiymətləndirməyə görə təqdir ediblər.

# Dünyanın ən uzun bilyard çubuğunun sahibi - 537 santimertlik rekord

**Fransalı bilyardçı Florian Koler dünyanın ən uzun bilyard çubuğuna görə Ginnesin Rekordlar Kitabına düşüb. Bu barədə lenta.ru saytı xəbər verir. Las-Veqas şəhərində keçirilən tədbirdə idmançı 537 santimetr uzunluğu olan bilyard çubuğunu nümayiş etdirib. Ona bu çubuğu sponsoru, yapon firması MEZZ hazırlayıb. O, çubuğun uzun olmasına baxmayaraq, onunla məharətli vuruşlar edə və 8 şarı bilyard masasındakı deşikdən keçirə bilib. Ginnesin Rekordlar Kitabının təmsilçiləri etiraf ediblər ki, beş metrlik alət dünyanın ən böyük bilyard çubuğudur. Normal bilyard çubuğunun uzunluğu 160 santimetrdir.**



Bundan sonra Koler bilyardla bağlı daha beş dünya rekorduna imza atıb. Ginnesin Rekordlar Kitabının hesablamasına görə, o, bir dəqiqə ərsinzə 70 şarı bilyard masası dəliyndən keçirə bilib.

# Dərisi rəngarəng tibb bacısı



**Qanadan olan 25 yaşlı tibb bacısı vitiliqo xəstəliyindən əziyyət çəksə də, uğurlu maneken olub. Vitiliqo qazanılmış xroniki xəstəlikdir. Bu xəstəliyin əsas simptomu xəstənin dərisində əmələ gələn ağ rəngdə ləkələrdir. Dəridə olan "melanin" adlı xüsusi piqmentin (məhz bu piqment bizim dərimizi adi normal rəngə "boyayır") azalmasına və ya yoxluğa görə, bu ləkələr adətən böyüməyə, bir-biri ilə birləşməyə, yeni yerlərdə əmələ gəlməyə meyillidirlər. Ləkələrin ölçüləri, formaları və yerləşməsi hər bir xəstədə fərdidir.**

Lenta.ru saytı xəbər verir ki, Enam Heykins adlı maneken jurnalistlərə deyib ki, 7 yaşı olanda onun dərisində rəngli ləkələr əmələ gəlməyə və artmağa başlayıb. Məktəbdə sinif yoldaşları onun qeyri-adi görüntüsünə lağ edib, onu aşağılamağa çalışırdırdılar: "Sinif yoldaşlarım mənim yanıma yaxınlaşmağa qorxurdular ki, birdən onlar da yoluxarlar"

Enam böyüyəndə də bu problem aradan qalxmayıb. Ona şəxsi həyatını yoluna qoymaq müəssər olmayıb. Sevgililəri utandıqları üçün heç vaxt onunla adam arasına çıxmazdılar: "Mən dəhşətli dərəcədə yorulmuşdum. Amma beş il öncə qərar verdim ki, bütün hallarda bu durumdan qurtulmaq lazımdır".

Qız o nəticəyə gəlib ki, xarici görünüşü ilə barışmalı və bu xəstəliyə görə narahat olmağa son verməlidir.

Enam tibb bacısı təhsili alanda, vitiliqo konfransına gedib. Orada model agentliyinin nümayəndələri ona diqqət ediblər və qızı moda jurnallarının çəkilişlərinə çağırıblar.




**QOÇ** - Ailə üzvlərinizlə davranışlarda nəzakətli olun. Məhz belə olduqda özünüzə qarşı rəğbət oyada bilərsiniz. "Yalnız mən haqlıyam" ifadəsini tərgidin. İş günü olsa da, istirahətə vaxt ayırın.

**BUĞA** - Atdığınız hər bir addımın məsuliyyətini hiss edin. Bu, çıxaracağınız qərarların icrasında sizə böyük dəstək ola bilər. Əks təqdirdə gün ərzində müvəffəqiyyətə yetişə bilməyəcəksiniz.

**ƏKİZLƏR** - Maraqlı görüşlər yolunuzu gözləyir. Ola bilsin ki, yeni təkliflər də alasınız. Axşam təmiz havada gəzinməyiniz sağlamlığınıza xeyir gətirə bilər. Büdcənizdə artım mümkündür.

**XƏRÇƏNG** - Sevgi dolu bir gün yaşayacaqsınız. Yaxın adamların sizi başa düşməsi, o cümlədən səhvlərinizi bağışlaması ürəyinizcə olacaq. Nəzərdə tutmusunuzsa, nahardan sonra səfərə çıxın.

**ŞİR** - Nədənsə bu ərəfələr sizin üçün o qədər də ürəkaçan keçmir. Bu səbəbdən də riskli və qeyri-adi hərəkətlərə yol verməməlisiniz. Qonaq getmək, gəzintiyə çıxmaq çox səmərəlidir.

**QIZ** - İşlə özünüzü çox yormayın. Ulduzlar daha çox istirahətə yer ayırmağınızı tövsiyə edir. Saat 16-dan sonra yaxınlarınızla aranızda yaranmış anlaşılmazlıqlara aydınlıq gətirməyə çalışın.

**TƏRƏZİ** - Nahara qədər ümumi vəziyyətiniz qənaətbəxş olacaq. Nəzərdə tutduğunuz işlərin bir çoxunu gerçəkləşdirəcəksiniz. Sonrakı vaxtınızı isə daha çox sizi anlayan insanlarla keçirin.

**ƏQRƏB** - Sevgi amilinə daha böyük diqqət yetirin. Çünki iş gəldi-gedər olsa da, bu hisslər ilahidən gəldiyi üçün əbədidir. Gün ərzində sizə yaxın olanlarla mübahisələrdən yayının.

**OXATAN** - Hələ ki, mövcud durumunuz Göy qübbəsini qane edir. Əsası odur ki, hər hansı xoşagəlməzlik baş verməyəcək. Bu gün şəxsi işlərinizdə əsaslı dönüş etmək üçün aktivləşməlisiniz.

**OĞLAQ** - Hər mənada uğurlu gün yaşayacaqsınız. Ulduzlar bəxtinizin gətirəcəyini bəyan edir. Təzə xəbərlər də eşidəcəksiniz. Amma həmkarlarınızla təmkinli davranın ki, işdə passivlik yaranmasın.

**SUTÖKƏN** - Bir qədər mübahisəli ərəfədir. Daimi ünsiyyətdə olduğunuz adamlarla, ələlxüsus da həmkarlarınızla xoşagəlməz situasiyalara cəlb oluna bilərsiniz. Bələd olmadığınız ünvanlara getməyin.

**BALIQLAR** - Astroloji göstəricilərə görə bu gün əməkdaşlıq zəminində uğurlarınız böyük olacaq. Aldığınız təkliflərin perspektivlərinə inanırsınızsa, imtina etməyin. Varlanmaq şansınız var.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Seçki kampaniyasında qoyunlardan istifadə edir



**Şotlandiyanın liberal-demokrat partiyasının lideri Uilyam Renni qoyunla şəkil çəkdirib. Bu barədə "Daily Mirror" qəzeti məlumat yayıb. Siyasətçi Şotlandiya üzrə səfər həyata keçirir və 4 mayda keçiriləcək seçkilər öncəsi yerli seçiciləri qarşısında çıxış edir. Fayf bölgəsinə səfəri zamanı isə o, zarafatla otlaqda qoyunlardan biri ilə guya mübarizəyə girişib.**

Şəkillərdən birində Renni qoyunu başından dartır. Digər fotoda isə qoyun arxa ayaqlarının üstündə dayanıb və siyasətçi onun başını qucaqlayıb. Sonuncu kadrda isə siyasətçi qoyun sürüsünün arasında dayanıb və gülərək poza verib. "Daily Mirror" nəşri xəbər verir ki, 2015-ci ildəki seçkidən öncə də bu şəxs qoyunlarla şəkil çəkdirmişdi.

Ötən seçkilərdə Şotlandiyanın liberal-demokrat partiyası Britaniya parlamentinə cəmi bir namizədini keçirə bilmişdi. Ölkə parlamentində beş partiyanın nümayəndəsi təmsil olunur. Renni isə söz verir ki, bu dəfə nəticə daha da yaxşı olacaq.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "B-Z" mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

Lisenziya N: B 114
SAYI: 5.100